

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Ömrü dastana dönmüş XUDAYAR...



3

№ 194 (7119)

SƏS

22 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Sülh müqaviləsi: regional əməkdaşlıqda yeni imkanlar



2

*Prezident İlham Əliyev: "Ölkəmiz regional sülh gündəliyini dəstəkləyir"*

# BRİCS: iqtisadi, yoxsa hərbi güc mərkəzi?




4

## Regionda sülhü təmin edə bilən "3+3" FORMATI




8

## AİLƏ: hüquqdan çox hörmət



9

## Ermənistan delimitasiya üzrə layihəni təsdiqlədi



10

## Elektromobillər niyə sərfəli deyil?



11

## "41", yoxsa "5"?



13





# Sülh müqaviləsi: regional əməkdaşlıqda yeni imkanlar

## Prezident İlham Əliyev: "Ölkəmiz regional sülh gündəliyini dəstəkləyir"

***Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır. Azərbaycan - ABŞ münasibətləri də yüksələn xətt üzrə inkişaf edir.***

Siyasi və təhlükəsizlik, eləcə də enerji sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul etməsi əlaqələrin davamlığına söykənir. Maykl Karpenter qəbula görə təşəkkürünü bildirdi və ABŞ Prezidenti Cozef Baydenin məktubunu dövlətimizin başçısına təqdim edib və ABŞ-ın Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulayaraq, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu deyib.

### "SÜLH MÜQAVİLƏSİNİN VƏ ONUN ƏSASINI TƏŞKİL EDƏN BEŞ PRİNSİPİN TƏŞƏBBÜSKARI MƏHZ AZƏRBAYCANDIR"

Sülh müqaviləsinin imzalanması ilə regional əməkdaşlıq üçün geniş imkanların yaranacağını vurğulayan qonaq bildirib ki, ABŞ-ın bu prosesin irəli aparılmasında qəti dəstəyi var. Sülh müqaviləsinin və onun əsasını təşkil edən beş prinsipin təşəbbüskarının, məhz Azərbaycan olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir. Bildiyimiz kimi, ölkəmiz tərəfindən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və bu əsasda normallaşmaya nail olmaq mümkündür. Dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması; dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi; dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması; nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

İki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər.

Azərbaycanın sülh prosesinə başlamaq üçün irəli sürdüyü 5 baza prinsipi beynəlxalq hüquq normalarına və dövlətlər arasında diplomatik münasibətlərin qurulmasının beynəlxalq təcrübəsinə söykənir. Bu iki dövlətin əməkdaşlığının genişlənməsi və əlaqələrin möhkəmlənməsi, bütövlükdə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

### "ERMƏNİSTAN TƏRƏFİNDƏN İSTƏNİLƏN REVANŞİZM CƏHDLƏRİ RİSKİNİN SIFIR SƏVİYYƏDƏ OLMASINI İSTƏYİRİK"

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Ərazi bütövlüyümüzün bərpa edilməsi, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi üçün Prezident İlham Əliyevin tutduğu qətiyyətli mövqe, ordu quruculuğuna, hərbi-sənaye kompleksinin inkişafına göstərdiyi diqqət və qayğı 44 günlük Vətən müharibəsində öz sözünü demiş oldu. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Azərbaycan Prezidenti İlham Əliyev qətiyyətli siyasi iradəsini ortaya qoydu və dövlət başçısının dünyanın aparıcı KİV-lərinə verdiyi 30-a yaxın müsahibəsində ölkəmizin haqq mövqeyini dünyaya çatdırmış oldu. Sülhsevər siyasət yürüdən Azərbaycan münaqişənin sülh, danışıqlar yolu ilə uzun müddət həllinə nail olmağa çalışsa da mümkün olmadı. Ermənistan Azərbaycan Prezidenti İlham Əliyevin sülh çağırışlarına hərbi təxribatlarla cavab verdi. Azərbaycanın 44 gün ərzində apardığı əks-hücum əməliyyatları Ermənistan üçün acı sonluqla yekunlaşdı. XXI əsrin müharibəsini aparan Azərbaycan düşmən üzərində tarixi qələbəsini qazandı, doğma Qarabağımız əsl sahiblərinə qaytarıldı. Bu gün də qalib xalq olaraq ölkəmizə maraq sonsuzdur. Müharibədən sonrakı durum, Azərbaycanın mövqeyi diqqətdə saxlanılır. Bu Azərbaycanın dünya miqyasında olan yüksək imicindən qaynaqlanır. Əlbəttə ki, dövlət başçısı bütün çıxışlarında, müsahibələrində ölkəmizin haqq mövqeyini sərgiləyir və sülhsevər siyasəti dünya ictimaiyyətinə mesaj olaraq çatdırılır. Tarixi ədalət bərpa edilib. "Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik". Prezident İlham Əliyev xarici mətbuata verdiyi müsahibələrində birində bildirib: "Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular da bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik".

### "BİZ CƏNUBİ QAFQAZ ÜÇÜN SÜLH İSTƏYİRİK, SABİTLİK, TƏHLÜKƏSİZLİK VƏ ÇİÇƏKLƏNƏN GƏLƏCƏK İSTƏYİRİK"

Bu gün artıq müharibənin başa çatmasından dörd il ötür. Azərbaycan öz sülhsevər siyasətini davam etdirir. Müharibədən sonra təkcə Cənubi Qafqazda deyil, eləcə də dünyada mövqeyini gücləndirən Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənir. Azərbaycanın mövqeyi açıq-aşkardır: "Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik", - deyə Prezident bildirib. Əlbəttə ki, komunikasiyaların açılması, həm Azərbaycanın, həm Ermənistanın və digər dövlətlərin, ümumilikdə regionda hamının marağındadır. Komunikasiyaların açılması bölgədə yeni əməkdaşlıq platformalarının yaradılmasına gətirib çıxaracaq ki, bu da regionda uzunmüddətli sülhün, əminamanlığın təmin olunmasında çox mühüm rol oynayacaq. Zəngəzur dəhlizinin açılması ilk növbədə Naxçıvanla Azərbaycanın əsas hissəsini birbaşa birləşdirən nəqliyyat dəhlizi olacaq. Bu dəhlizin açılması Azərbaycanla qardaş Türkiyənin quru və dəmir yolu xətti ilə birbaşa birləşməsini həyata keçirəcəkdir.

44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini gördü. Mülki, dinc insanların hədəfə alınması, yaşayış yerlərinin dağıdılması erməni vəhşiliyini bir daha dünyaya nümayiş etdirdi. 30 ilə yaxın işğalda qalaraq dağıdılan, talan edilən ərazilərimizdə bu gün Cənab Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində həyat yenidən dirçəlir. Həmin ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi üçün irimiqyaslı layihələr reallaşdırılır.

Azərbaycan nəinki regionda, həm də dünyada sülhə xidmət edən mövqeyini artıq ortaya qoyub. Dünya dövlətləri də artıq bununla razılaşır.

***Zümrüd BAYRAMOVA***







# Ömrü dastana dönmüş XUDAYAR...

## *Şəhid Xudayar Yusifzadə Vətən arzusuyla nəğmələr qoşdu*

***Azərbaycanın son 30 ildə torpaqları şəhid qanı ilə suvarılıb. Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb. Yaşından asılı olmayaraq, bu torpaq uğurunda şəhid olub və ayaq qoyduğumuz hər qarışın müqəddəsliyini dərk etməliyik.***

44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan odusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Qisas qiyamətə qalmadı. Əlbəttə ki, canını vətən torpağının işğaldan azad olunması yolunda sipər edən vətən oğulları böyük igidlik, şücaət göstərərək, düşmənə qalib ölkənin ölümün gözünə dik baxan oğullarının vətənpərvərliyini göstərə bildilər. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti. Vətənsiz millət, millətsiz isə Vətən ola bilməz. Bəli, Azərbaycanın bu torpağa, Vətənə Ana deyən övlvadları var. Elə 44 günlük Vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan igidlərimiz – şəhadətə qovuşan şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq dastanı.

Dumanlı dağların başında durdum
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum
Dumanlar başında duman göründü
Duman göründü...

Bu misralar səsləndikcə uzaq bir dünyaya boylanırsan. Sanki qeybdən gələn bir səsin sehrinə düşüb, vətən sevgisində yoğrulmuş bir dünya ilə baş-başa qalırsan - Xudayar dünyası ilə. 22 illik ömrünə dörd il əvvəl ilin bu günü vida deyərək, şəhid olan vətən oğlu. Şücaəti ilə adı əfsanələşdi. Belə bir Azərbaycanın qəhrəman oğlu bir neçə gün ərizində xalqının sevilən bir qəhrəmanına çevrildi. Hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə yüksəldi. "Vətən arzusuyla nəğmələr qoşdum, Tufanlar qarşımda dastana döndü", - deyə oxuyan Xudayarın od- alov, ataş içində ömrü dastana çevrildi. Şəhidliyi ömür payı olan Xudayarın döyüş yolu, göstərdiyi şücaət bu gün hər bir gəncə örnəkdir.

### VƏTƏN ƏMANƏTİ, YURD ƏMANƏTİ

Bu gün onun ömür yolunu vərəqləyirik: Xudayar Müslüm oğlu Yusifzadə. 15 iyul 1998-ci ildə Bərdə şəhərində dünyaya gəlib. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası - Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar - üç qardaş və bir bacı. Tale elə gətirib ki. Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib. Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alıb. 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və "gizir" hərbi rütbəsi alıb. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə rayon Hərbi Komissarlığına müraciət edib. Gözünü dünyaya açan zaman məkan olaraq ilk gördüyü Vətən torpağı olan Xudayar məqam yetişən kimi onun yolunda ölümə belə hazır olduğunu könüllü olaraq ordu sıralarına yazılmaqla göstərdi. Vətən babalarımızdan, əcdadlarımızdan bizə qalan yurd yerimizdir. Əsgər isə Vətən əmanəti, yurd əmanətidir.

### YOLU GƏLƏCƏK NƏSİLLƏRƏ MƏKTƏB

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edir, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunub. Belə ki, Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Ölkəmizin hər bir yerində Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidimizin xatirəsi uca tutulur. Azərbaycanda şəhidlik hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində Xudayarın büstü qoyulub. İndi bu məktəbə gələn hər bir insan onun böyük bir məslək yolunda şəhid olduğunu biləcək və keçdiyi həyat yolu gələcək nəsil tərəfindən zaman-zaman öyrəniləcəkdir.

### İNSANÇÜN LALƏZAR VƏTƏN YAXŞIDIR

Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldi. Şəhidlik zirvəsində xalqımız tərəfindən tanındı və sevildi. "Xudayar təsnifi" ilə fenomenə çevrildi. Sanki bu mahnıya yeni ömür caladı – şəhid Xudayar ömrü. Özü kimi mahnı da əfsanəviləşdi. Ölümündən 2 gün əvvəl Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılmış mahnını ifa etdi və ona yeni bir nəfəs verdi. Elə bir nəfəs ki, hər bir zaman dilləndikcə ruhları oyadacaqdır. Sanki mahnı yenidən yazıldı və mahnının sözləri böyük bir sevgisi ilə Vətən aşiqinin dili ilə yoğruldu. Hərdən insan təəccüblənir ki, illərlə ifa olunan bu təsnifin nəyə görə məzmununa bu qədər dərindən varmırdı. Səs, ifa, görkəm və ən sonda vətənə bağlı ömrün şəhadəti "Xudayar təsnifi"ni bizlərin qəlbində əbədiləşdirdi. Mahnı oxunanda insan ruhu başqa bir dünyaya qovuşur. Mahnıya "Xudayar təsnifi"nin verilməsi vətənin şəhid oğluna olan diqqət idi. Ona olan böyük sevgi idi. Xudayar adının bir musiqidə əbədiləşməsi idi. Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni oranjemanda təqdim olundu. Əlbəttə ki, bir musiqidə deyil, bütöv bir xalqın qəlbində yuva qurdu Xudayar.

Deyirlər bülbülə çəmən yaxşıdır
İnsançün laləzar vətən yaxşıdır.
Vahid, sorma vətən nədən yaxşıdır?
Adı gələcək könlüm xəndan göründü
Xəndan göründü...

Bəli, bu gün minlərlə şəhidimiz kimi Xudayarın da ruhu şaddır, xəndandır. İşğaldan azad olunan torpaqlarımızda tökdükləri qan ilə işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün qan ilə suvarılmış torpağımızda yeni fidanlar böyüyəcək. Torpağı sevəcək və Xudayar kimi oğulların davamçıları olacaqlar. Xudayar bir evin, bir obanın deyil, Azərbaycan övladıdır. Bu gün ölümündən dörd il ötür. Ruhun şad olsun, Xudayar. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## Cozef Bayden: “ABŞ Azərbaycanla Ermənistan arasında dayanıqlı və ləyaqətli sülhün əldə edilməsinə dəstək verməyə hazırdır”

“İki ölkə arasında münasibətlərin normallaşdırılmasına xidmət edəcək sülh sazişinin yekunlaşdırılması istiqamətində ölkənizin və Ermənistanın əldə etdiyi davamlı tərəqqidən məmnunam. Sizi əmin etmək istəyirəm ki, ABŞ əsrlər boyu davam edən münaqişəyə nəhayət son qoyacaq Azərbaycan ilə Ermənistan arasında dayanıqlı və ləyaqətli sülhün əldə edilməsinə dəstək verməyə hazırdır.” Bu fikirlər ABŞ Prezident Cozef Baydenin Prezidenti İlham Əliyevə məktubunda yer alıb.



ABŞ Prezidenti məktubunda, həmçinin qeyd edib: “Sülh sazişi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, bütün regionu transformasiya edəcək, Avropa və Mərkəzi Asiya arasında daha çox ticarətə, sərmayə qoyuluşuna və bağlılığa xidmət göstərəcək. Dünyanın diqqəti COP29 ilə bağlı Bakıya yönəldiyi bir vaxtda qlobal ictimaiyyətə sülhə sadiqliyinizi nümayiş etdirmək üçün misilsiz imkana maliksiniz. Bildiyiniz kimi, sülh sazişinin razılaşdırılmamış bəndlərinə dair işin yekunlaşdırılması hər iki tərəfdən kreativlik və güzəşt tələb edəcək. Lakin əminəm ki, bu imkandan yararlanmağa davam edəcəksiniz. Mən Sizi cari ildə sazişi yekunlaşdırmağa dəvət edirəm”.

## İsrail mətbuatı Niderland parlamentini riyakarlıqda ittiham edib




Niderland hakimiyyəti ölkə ərazisində yaşayan yəhudilərə qarşı mənfi münasibəti fonunda özündə cəsarət taparaq Azərbaycanın ermənilərlə rəftarı ilə bağlı qərəzli qətnamələr qəbul edir. AZƏRTAC xəbər verir ki, bu barədə tanınmış israilli siyasi şərhçi və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham ölkəsinin populyar “Economic Peace Center” (İqtisadi Sülh Mərkəzi) nəşrində dərc olunmuş “Niderlandın riyakarlığının əleyhinə olmaq” başlıqlı məqaləsində yazıb.

Azərbaycanın həmişə öz ərazisindəki bütün erməni ziyarətgahlarını, o cümlədən Bakıdakı erməni kilsəsini mühafizə etdiyinə diqqət çəkən müəllif Niderlandda yəhudilərin müqəddəs yerlərinin mühafizəsinin analoji diqqətdən məhrum olmasından şikayətlənib.

Qeyd olunub ki, bütün bunların baş verdiyi, o cümlədən Karib hövzəsi regionunda neokolonial siyasətin davam etdirildiyi bir vaxtda Niderland parlamenti Azərbaycanı qınayaraq bu ölkənin öz ərazi bütövlüyünün bərpasını yolverilməz sayır. Halbuki öz hökuməti tərəfindən digər ölkələrin suverenliyinin pozulmasını məqbul görür. Məqalədə bu yaxınlarda Niderlandın yeni kabinetinin proqramında Boneyr, Sent-Eustatius və Sabada həyata keçirilməsi planlaşdırılan qanunvericilik və siyasət təşəbbüslərinin həmin ərazilərdə rifahın yaxşılaşdırılması məqsədi daşıdığı iddiasına şübhə ilə yanaşılır.

Yazıda Bakı Təşəbbüs Qrupunun Niderland hökumətindən Karib adalarının azadlığına və öz müqəddəratını təyin etmək hüququna hörmətlə yanaşmağı, onların müstəqilliyinə mane olmamağı xahiş etdiyi barədə məlumat da əks olunub. Müəllifin fikrincə, Niderlandın Bakı Təşəbbüs Qrupunun tələbinə məhəl qoymamağı, eyni zamanda, Azərbaycanı qınamağı və öz ərazisindəki yəhudi icmasını müdafiə etməməyi adıçəkilən ölkənin hakimiyyətinin riyakarlığının göstəricisidir.

*“Ölkəmizdə beynəlxalq tədbirlərin təşkili Azərbaycan dövlətinin sülhsevər olduğunu və multikulturalizm siyasətini bir daha dünya ictimaiyyətinə təqdim edir. Beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi üçün ölkəmizə olan etimad Azərbaycan Respublikası Prezidenti cənabİlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir.*




## “COP29-la bağlı görülən işlər son tamamlanma mərhələsindədir”

Eyni zamanda, bütün bu tədbirlər Azərbaycanın gücünü, potensialını və təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirir”. Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib. O bildirib ki, 2024-cü ilin 11-22 noyabr tarixlərində ölkəmizdə çox əhəmiyyətli beynəlxalq tədbir - COP29 (BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı)konfransı keçiriləcək: “Bu tədbir həm öz əhatə dairəsinə, həm iştirak edəcək qonaqların sayına, ehtiva etdiyi məsələlərin əhəmiyyətinə görə çox böyük nüfuzlu tədbir olaraq dəyərləndirilir. Belə mötəbər tədbirə ev sahibliyi etməsi üçün etimad göstərilməsi Azərbaycanın nüfuzunu, gücünü, qüdrətini ortaya qoyur. COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq 2023-cü ilin dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib.

Prezident cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030:Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri “təmiz ətraf mühit” və “yaşıl artım”la bağlıdır. Bu isə yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Dünyada tanınmış və təsdiq edilmiş nüfuz sahibi olan ölkədə belə tədbirin keçirilməsi ancaq məqsədəuyğun ola bilərdi ki, bunun üçün də Azərbaycan seçilib.Ümumiyyətlə, Azərbaycanın həm beynəlxalq aləmdəki nüfuzu, həm də ölkə daxilindəki stabil siyasəti, əminamanlıq, demokratik dəyərlərə verilən qiymət beynəlxalq təşkilatların ölkəmizə olan marağını və istəyini də artırmaqdadır. Buna görə də Azərbaycan ev sahibliyi edəcəyi bu toplantıda düşünürük ki, bir daha nüfuzunu, əhəmiyyətini nümayiş etdirə biləcəkdir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə ələqədar yekdil qərarın verilməsi həm də,beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Əldə olunan şanlı Zəfərlə ölkəmizi dünyada daha güclü dövlət kimi tanıdıb. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır. Azərbaycan son 4 il ərzində BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edib və növbəti sədrliklərə uğurlu miras buraxıb. Ölkəmiz qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirib. Bu, beynəlxalq birlik tərəfindən də qəbul edilib və təqdirlə qarşılanıb. Belə dünya səviyyəli və böyük tədbirləri təşkil etmək üçün ilk növbədə müasir infrastruktur və təhlükəsizlik əsas amillər arasında yer alır. Azərbaycan hər iki amilə malik azsaylı dünya ölkələrindən biridir.

Paytaxtımız COP29 kimi nüfuzlu tədbirə ciddi hazırlaşır, şəhərdə genişmiqyaslı abadlıq-quruculuq tədbirləri sürətlə həyata keçirilir. Hazırda paytaxtımızda küçə və prospektlər, yollar, yaşayış və inzibati binaların fasadları, dam örtükləri, eyvanlar təmir edilir, rənglənir, səki kənarlarına yeni bardürlər quraşdırılır, yol kənarlarına dekorativ daş döşənir. Sadalananlarla yanaşı, köhnə parklar yenilənir, şəhərimizin müasir inkişaf səviyyəsinə və memarlıq üslubuna uyğun dizaynda yenidən qurulur, müxtəlif istirahət guşələri, əyləncə qurğuları yaradılır, o cümlədən uzun müddət yararsız vəziyyətdə olan fəvvarələr abadlaşdırılır, istirahət guşələrində güllər və həmişəyaşıl kollar əkilir.

Qeyd edək ki, Prezident cənab İlham Əliyevin müvafiq tapşırığı ilə Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində son illərdə ardıcıl tədbirlər davam etdirilir. “Yaşıl dünya naminə həmrəylik ili”ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevcari ilin oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub. Ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır. Prezidentcənab İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verilib. Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış olub. Ölkə rəhbəri tərəfindən Media Mərkəzinə də baxış keçirilib. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Konfransın işıqlandırılması üçün bugünə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib. Ölkə rəhbəri tərəfindən görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

Bildirək ki, cari ilin ilin 11-22 noyabr tarixlərində Bakıda keçiriləcək COP29-a hazırlıq prosesi çərçivəsində tədbir müddətində yol hərəkətinin fasiləsiz və təhlükəsiz şəkildə təşkili məqsədilə paytaxtda nəqliyyatın idarə edilməsi üzrə gecə saatlarında keçirilən monitorinqlər uğurla yekunlaşdırılıb. COP29 Azərbaycan Əməliyyat Şirkəti, Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən həyata keçirilən monitorinq tədbirləri çərçivəsində oktyabrın 20-də saat 02:30-dan 04:00-dək paytaxtın mərkəzində qonaqların yerləşməsi üçün nəzərdə tutulmuş müxtəlif qonaqlama məkanları, Heydər Əliyev Beynəlxalq Aeroportu və tədbir məkanı istiqamətlərində müvafiq nəqliyyat vasitələrinin hərəkəti test edilib. COP29-a ev sahibliyi etmək qərarı Bakının iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyidir. Artıq COP29-un başlamasına qısa bir zaman qalıb. Azərbaycan daha bir mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi edəcək.

Göründüyü kimi, beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməyimiz göstərir ki, daha əvvəl də nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan üçün COP29 növbəti mərhələ olacaq. Bu mərhələ bütün dünyaya bir daha Azərbaycanın nüfuzlu beynəlxalq simasını, bu istiqamətdə verdiyi yüksək səviyyəli dəyərlərin nümayişinə çevriləcəkdir”.

***Səbinə Hüseynli***




# BRİCS: iqtisadi, yoxsa hərbi güc mərkəzi?

**BRİCS** ***təşkilatının dünyada getdikcə böyük maraq doğurması tərəfdarları ilə yanaşı əlehdarlarını da diqqəti bu istiqamətə çevirməyə məcbur edib. ABŞ-ın The Nation nəşri bu barədə yazır. BRİCS-in genişlənməsi blokun aktiv fəaliyyətini və cəlbediciliyini göstərir.***

## *Blok üzv ölkələrə qeyri-sabitliyi aradan qaldırmaq imkanı verir*



BRİCS alternativ valyutalarla bağlı problemləri həll etmək və dünyada yaranmış balanssızlığı düzəltmək cəhdidir. Qərb uzun müddətdir ki, Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika, İran, Misir, Efiopiya və Birləşmiş Ərəb Əmirliklərindən ibarət hökumətlərarası təşkilat olan BRİCS-ə məhəl qoymur. Lakin keçən il Cənubi Amerikanın Yohannesburq şəhərində keçirilən sammit zamanı bu, böyük marağa səbəb oldu. Həmin görüş bu günə qədər BRİCS-in ən böyük genişlənməsi oldu: Misir, Efiopiya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Argentina və Səudiyyə Ərəbistanı bu təşkilata dəvət aldı. Argentina sonradan imtina etsə də, Səudiyyə Ərəbistanı qərarsız olsa da, daha dərin mesaj Qlobal Cənubun yeni iddiaları idi.

BRİCS ölkələrinin liderləri tezliklə Rusiyanın Kazan şəhərində 16-cı sammit üçün yenidən bir araya gələcəklər. Keçən il BRİCS-i Qlobal Şərq (Çin və Rusiya) ilə Qlobal Cənub arasında koalisiya adlandırmaq olardı. Onun genişlənməsi inkişaf etməkdə olan dünyanın ABŞ-ın rəhbərlik etdiyi dünya nizamının uğursuzluqlarından dərin narazılığının güclü siqnalıdır. Bir il sonra, dünyada böyük güclər arasında artan müharibə riskinə baxmayaraq, BRİCS Qlobal Cənub üçün daha cəlbedici olub. BRİCS iki istiqamətdə vəd verir. Birincisi, onun genişlənməsi özlüyündə təşkilatın güclü fəaliyyətindən və böyük cəlbediciliyindən xəbər verir. İkincisi, bu, əsasən inkişaf maliyyəsi və alternativ valyutalarla bağlı problemləri həll etmək cəhdidir.

Yohannesburqda başlayan yeni üzvlərə qoşulma prosesi kifayət qədər rahat keçib. Misir, Efiopiya, İran və BƏƏ bu ilin əvvəlində BRİCS-ə birbaşa olaraq qoşulublar. Yeni üzvlərin bir çox potensial faydaları var. Enerji ilə zəngin BƏƏ maliyyə mənbəyi, möhkəm gəlirlər və canlı startap mədəniyyətidir. Ərəb dövlətləri arasında Misir xüsusi və görkəmli rol oynayır. Efiopiya ilə birlikdə əhalinin sayına görə Afrika ölkələri arasında müvafiq olaraq üçüncü və ikinci yerləri tutur. İran sanksiyalara və İsraillə münaqişəyə baxmayaraq, enerji baxımından zəngin regional güc statusuna malikdir.

Ötən il göstərdi ki, Qlobal Cənubda BRİCS-ə qoşulmaq istəyi daha da artır. Tayland və Malayziyanın təşkilata qoşulmaq istəyi iqtisadi artım və inteqrasiya baxımından əhəmiyyətli irəliləyişlər göstərən bir region olan Cənub-Şərqi Asiya blokunun gələcək birləşməsini göstərir. Asiyanın o biri ucunda Türkiyə və Avrasiya dövləti olan Azərbaycan da təkliflər verib. Prezident Ərdoğan 24 liderlə birlikdə Kazanda iştirak edəcək. Daha bir neçə dövlət də qoşulmağa hazırlaşır.

### Kazanda BRICS-ə yeni üzvlər gələcəkmi?

Qrup hazırda üzv olmaq istəyən bütün təşkilatlar üçün ümumi bir problemlə üzləşir: artım və səmərəliliyin tarazlaşdırılması. Sentyabrda BRİCS xarici işlər nazirləri birgə bəyanat qəbul edə bilməyiblər. Səbəb Yaxın Şərqlə bağlı fikir ayrılıqları və BMT Təhlükəsizlik Şurasında Afrika nümayəndəsinin namizədliyi olub. Kazanda əsas komandanın genişləndirilməsi mümkündür, bununla belə, çox güman ki, tam üzvlükdən aşağı olan yeni tərəfdaş ölkələr kateqoriyası təqdim ediləcək. Bu, keçən ilki sammitin bəyannaməsində qeyd olunan məqsədə nail olmaq demək olacaq (BRİCS növbəti zirvə görüşündə ölkələrinin xarici işlər nazirlərinə tərəfdaş ölkələrin modelini daha da inkişaf etdirmək və mümkün tərəfdaş ölkələrin siyahısını hazırlamaq və bu barədə 2012-ci il tarixində hesabat vermək tapşırılıb).

*Ardı Səh. 6*





BAXIŞ BUCAĞI

# BRİCS: iqtisadi, yoxsa hərbi güc mərkəzi?



Əvvəli-Səh-5

BRİCS-in "anti-Qərb" mahiyyəti haqqında çox danışılıb, çünki orada Çin və Rusiyanın böyük təsiri var. Lakin uzunmüddətli perspektivdə blokun Qlobal Cənubda genişlənməsi əslində Moskva və Pekinin təsirini zəiflədə bilər. Qlobal Cənub nə Qərbin müttəfiqi, nə də düşməni olmalıdır. O, "ABŞ-ın nisbi gücünün zəifləməyə başladığı və dünya nizamının gələcəyinin hələ də çox qeyri-müəyyən olduğu" dünyada çox vektorluluq təcrübəsini məhdudlaşdırmaq istəmir.

### İctimai maraqların həyata keçirilməsi

BRICS, onun əsasında yaradılmış və baş ofisi Şanxayda yerləşən Yeni İnkişaf Bankı (NDB) vasitəsilə ən əhəmiyyətli təsirə malikdir. Bank Standard & Poor's-dan AA+ reytinqinə malikdir və ən böyük təsisçilərdən biri olan Rusiyaya qarşı Qərbin sanksiyalarına baxmayaraq, onu qoruyub saxlamağa nail olur. NDB-nin əsas səhmdarları bərabər payda olan beş əsas BRİCS üzvüdür. Bununla belə, o, BMT-yə üzv olan bütün dövlətlər üçün açıqdır və bu yaxınlarda Əlcəzairin üzvlüyünü təsdiqləyib. Digər əsas olmayan üzvlər Banqladeş, Misir, BƏƏ və Uruqvaydır. İllik NDB kredit ödənişləri təxminən 4 milyard dollar təşkil edir ki, bu da Dünya Bankının 100 milyard dollardan çox rəqəmindən xeyli aşağıdır.

Qüdrətli dolların qlobal hegemonluğuna görə, Qərbin sanksiyalarını sarsıtmaq təhlükəsi ABŞ-ın əsas müttəfiqlik sistemindən kənar bütün dövlətlərin ümumi zəifliyidir. Xüsusilə Rusiya və Çin, Hindistan və Rusiya arasında və ASEAN çərçivəsində daha böyük maliyyə muxtariyyətinin əldə edilməsinə yönəlmiş yerli valyutalar üzrə ikitərəfli sazişlərin genişləndirilməsi mövcuddur. Və beləliklə, onlar indiyədək dolların dominantlığını zəiflətməyə nail olublar.

BRICS bunu de-dollarizasiya adlandırmaq istəməsə də, rəqəmsal və mərkəzləşdirilməmiş texnologiyalardan istifadə edərək dollardan yan keçmək üçün BRICSPay platformasının yaradılması istiqamətində işlər davam edir. Xüsusilə ciddi sanksiyalar altında olan Rusiya bu sahədə uğur əldə etməkdə maraqlıdır. Bununla belə, BRİCS çərçivəsində istənilən sürətli irəliləyiş birmənalı qarşılanmır. Bəli, bir çox dövlətlər öz valyutalarını müstəqil şəkildə təqdim etməyə davam edirlər, lakin Kazanda bu cür razılaşmalar üçün ümumi platformanın həyata keçirilməsi baxımından yalnız aralıq nəticələr əldə ediləcək.








### Müharibədən əziyyət çəkən dünyada naviqasiya

2018-ci ildə "böyük güc yarışı" başlayanda BRİCS ticarət və investisiyaların silaha çevrildiyi qlobal tendensiya ilə üzləşməli oldu. Digər neqativ amil isə Rusiya-Ukrayna münaqişəsi başlayandan böyük dövlətlərin açıq şəkildə müharibə ilə məşğul olmasıdır. Və 2023-cü il oktyabrın 7-də HƏMAS terror aktından sonra Fələstinə və Livana hücum edən hazırkı İsrail hökumətini Vaşinqtonun silahlandırması və himayə etməsi regional münaqişə astanasına gətirib çıxarıb. Bu arada, Afrikanın Saheldən Somaliyə qədər geniş bir bölgəsi artan zorakılıqdan və uğursuz dövlətlərdən əziyyət çəkir. Bu gün dünyanın çox hissəsi müharibə və ya müharibə astanasındadır.

İndiyədək BRİCS Ukraynadakı döyüşlər fonunda təzyiqlərin öhdəsindən məharətlə gəlib. Yaxın Şərq daha ciddi problem yaradır. ABŞ-ın da iştirak etdiyi İsrail-İran müharibəsi BƏƏ-nin sabitliyini və rifahını təhdid edə bilər və Misirə İsrailə qarşı daha qətiyyətli davranması üçün əlavə təzyiq göstərə bilər. Bu arada Misir və Efiopiya arasında gərginlik səngimək bilmir. Bunlar yalnız dörd yeni BRİCS üzvüdür. Blokun ümumiyyətlə, fəaliyyətinə təsir edən üzvlər arasında ikitərəfli gərginliklə bağlı heç bir problemi yoxdur, ən yaxşı nümunə Çin və Hindistan arasında məsul blokdaxili rəqabətdir. Əslində, BRİCS-in rəqiblərin qarşılıqlı əlaqədə olduğu və ünsiyyətdə olduğu platformaya çevrilmək imkanı var ki, onlar ikitərəfli gərginliyi azalda bilər.

BRİCS-in daha da genişlənməsi parçalanma qüvvələrinin artması və çoxtərəfliliyin formal strukturlarının yavaş-yavaş tənəzzülü fonunda baş verir. Bu ona gətirib çıxarır ki, qeyri-rəsmi birliklər problemlərin həllində mərkəzi rol oynamağa başlayıblar. Bütün çatışmazlıqlara və iştirakçıların müxtəlifliyinə baxmayaraq, getdikcə populyarlaşan BRİCS dünyada yaranmış balanssızlığı düzəltmək üçün çoxlu zəruri vasitələrdən biridir. Xeyr, o, BMT-nin bərbad sistemini əvəz edə bilməz, lakin onun davamlılığı və inkişafı göstərir ki, bədnam parçalanmaya baxmayaraq, kollektiv fəaliyyət üçün impuls nə qədər qeyri-bərabər və uyğun olsa da, kifayət qədər canlı olaraq qalır.

### BRİCS yüksəlişdədir: dünya dəyişir

BRİCS nəinki iqtisadiyyatda öz mövqeyini gücləndirir, həm də beynəlxalq siyasətdə getdikcə nüfuzlu bir birliyə çevrilir. Bu qrup ölkələr həqiqətən inkişaf edir, Avropanın "Titanik"i isə sürətlə batmaqdadır. Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət BRİKS son onilliklərdə əhəmiyyətli iqtisadi irəliləyiş əldə etmiş inkişaf etməkdə olan iqtisadiyyatların güclü ittifaqıdır. Bu dövlətlər təkcə iqtisadiyyat dünyasının əsas oyunçuları deyil, həm də beynəlxalq siyasətdə getdikcə daha çox nüfuz sahibi olan subyektlərdir.

BRİCS-ə üzv ölkələr dinamik inkişaf edən bazarlara görə reputasiyaya malikdirlər. 2010-cu ildən 2021-ci ilə qədər onların qlobal ÜDM-dəki payı 18%-dən 26%-ə yüksəlib. Qruplaşmada qrupun ÜDM-nin 70%-dən çoxunu təşkil edən Çin üstünlük təşkil edir. Braziliya, Hindistan və Cənubi Afrikanın səhmləri daha təvazökardır. Təsirli artıma baxmayaraq, bu ölkələr uzunmüddətli inkişafını təhdid edən struktur problemlərlə, o cümlədən zəif institutlarla üzləşirlər.

### Daxili parçalanmalar və siyasi problemlər

Ümumi istəklərə baxmayaraq, BRİCS-in əhəmiyyətli daxili ziddiyyətləri var. Üzv ölkələr iqtisadi göstəricilərə, siyasi sistemlərə və geosiyasi maraqlara görə çox fərqlidirlər. Ciddi fikir ayrılıqları daxili birliyi təhdid edir və vahid strategiyanın hazırlanmasını çətinləşdirir. Lakin onları ümumi məqsəd birləşdirir - Qərbin (xüsusən də ABŞ dollarının) hökmranlığını sarsıtmaq və onları bu asılılıqdan xilas edə biləcək alternativ maliyyə mexanizmlərini inkişaf etdirmək. Vahid BRİCS valyutası dollardan asılılıqdan qurtulmağın bir yolu kimi görülür.

Bu gün beynəlxalq ticarətin 90%-i dollara bağlıdır və bir çox BRİCS ölkələri xarici əməliyyatlar üçün ondan istifadə etməyə məcburdur. Tətbiq olunan asılılıq onların iqtisadi suverenliyini məhdudlaşdırır və Vaşinqtonun sanksiyalarına qarşı həssaslığını artırır. Bu üstünlüklə mübarizə aparmaq üçün BRİCS milli valyutalarla dəstəklənən yeni ödəniş vasitələri yaratmağa çalışır. Belə bir tədbir assosiasiyaya üzv ölkələrə dollara müraciət etmədən birbaşa qarşılıqlı ticarət aparmağa imkan verəcək.

BRİCS ölkələri iqtisadi qarşılıqlı fəaliyyətlə yanaşı, elm və texnologiya sahəsində də əməkdaşlığı gücləndirirlər. Qrup üzvləri assosiasiya daxilində innovasiya və texnologiya transferini stimullaşdırmaq üçün fəaliyyət planı hazırlayıblar ki, bu planda BRİCS ölkələrinin təkcə iqtisadi sahədə deyil, həm də elmi inkişaflar səviyyəsində sıx əməkdaşlıq etmək istəyi vurğulanır.

*V.VƏLİYEV*



# Uğurlu diplomatik siyasət

## Vətən müharibəsinin 26-cı günü: Ağbənd azad olundu

***Əks-hücum əməliyyatlarının 26-cı günü – 2020-ci il oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi işğaldan azad edildi. Zəngilan rayonunun Ağbənd qəsəbəsinin işğalçılardan azad edilməsi tarixi əhəmiyyətə malikdir. Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyət daşıyan bu ərazinin işğaldan azad olunmasından artıq dörd il ötür. "Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir.***

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" 22 oktyabr 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bu sözləri yazmışdır. Həmin günün qələbə dolu xəbərlərinin ardı-arası kəsilmirdi. "Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi "Twitter" səhifəsində bildirmişdir.

Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də başlayan əks-hücumla qısa müddətdə artıq xeyli ərazini və yaşayış məntəqəsini erməni işğalından azad etmişdir. Araz çayı boyu da uğurlu əməliyyatlar keçirilib, düşmənin xeyli canlı qüvvəsi və texnikası məhv edilərək, ağır məğlubiyyətə uğradılmışdır. Azərbaycanın İranla 132 km-lik sərhəd ərazisi işğalçılardan tamamilə təmizlənmişdir. "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan ordusuna!" Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

Ağbəndin işğaldan azad edilməsi ilə Azərbaycan 30 ildən sonra İranla sərhədini tam bərpa edərək nəzarətə götürməklə yanaşı, cənub-qərb istiqamətində Ermənistanla sərhədə çıxmış oldu. Hər gün qələbə sevincini yaşamaqda davam edirdik. Qeyd etdiyimiz ərazilərin tarixin bu günündə işğaldan azad olunmasının sevincini yaşayırdıq.

### “ƏGƏR BİZƏ HÜCUM OLUNURSA, BİZ NƏİNKİ ÖZÜMÜZÜ MÜDAFİƏ ETMƏLİYİK, EYNİ ZAMANDA, ƏKS-HÜCUMA DA KEÇMƏLİYİK”

Əlbəttə ki, bu qələbələrimizi işğalçı "dövlət" həzm edə bilmirdi. Mülki insanlara açılan atəşlər, eləcə də müharibə getməyən ərazilərin atəşə tutulması erməni vəhşiliyini bir daha ortaya qoymuş oldu. 2020-ci ilin 10 oktyabr tarixi, saat 12.00-dan etibarən, humanitar məqsədlərlə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi və onun kriteriyalarına uyğun olaraq, hərbi əsirlər və digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi üçün atəşkəs elan olunur. Bu hadisədən sonra işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə, elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutdu. Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çox mənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı, çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Prezident İlham Əliyev Yaponiyanın 2020-ci ilin oktyabrın 22-də "Nikkei" qəzetinə müsahibəsində "Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar. Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik" – deyə bildirib. Cənab Prezident onu da qeyd edib ki, atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər: "Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar.



Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər". Onlar ikinci dəfə atəşkəsi pozandan sonra Azərbaycan Ordusunun Zəngilan şəhərini və bir çox kəndləri azad etdiyini bildirən Prezident İlham Əliyev vurğulayıb ki, döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. "Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir", - deyə dövlətimizin başçısı əlavə edib.

### “PREZİDENT İLHAM ƏLİYEV BAŞDA OLMAQLA AZƏRBAYCAN XALQI YENİ TARİX YAZIR”

Həmin gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə verdiyi müsahibədə "Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Deməк olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik" – deyə bildirmişdir. Bunun sadəcə, hərbi uğur olmadığını bildirən Birinci vitse-prezident tarixi ədalətin bərpası olduğunu qeyd edib: "Çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır. Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini! Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm".

### YENİ NƏSİL MÜHARİBƏ ÜSULU

Ali Baş Komandan, Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi. 44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail oldu. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Azərbaycanın əldə etdiyi qələbə və apardığı hərbi əməliyyatlar həm texniki imkanlar, həm də operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur.

Ölkə Prezidentinin dünyanın aparıcı mediasına verdiyi 30-dan artıq müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu.

Postmünaqişə vəziyyətinin aspektləri çərçivəsində Azərbaycanın azad edilmiş ərazilərin bərpası əsas məsələlərdəndir və bu istiqamətdə tarixi qələbəmizdən sonra azad edilən ərazilərdə sürətli şəkildə bərpa və quruculuq işləri aparılır. Azərbaycan regional təhlükəsizliyin möhkəmləndirilməsinə öz töhfəsini verir və dövlət başçısı bütün çıxış və görüşlərində regionda sülhün, sabitliyin və təhlükəsizliyin təminatına xüsusi önəm yetirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Regionda sülhü təmin edə bilən “3+3” FORMATI

Təhlil

***İstanbulda “3+3” Regional Məşvərət Platformasının xarici işlər nazirləri səviyyəsində üçüncü iclasının keçirilməsi bütün dünyanın, ələlxüsus da region ölkələrinin diqqət mərkəzindədir və bu, heç də əbəs yerə deyil. Çünki Türkiyə Xarici İşlər Nazirliyinin rəhbəri Hakan Fidanın, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın, İranın xarici işlər naziri Abbas Araqçının, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə keçirilən görüşün məhz Cənubi Qafqazda daimi sülhün təmin edilməsi və əməkdaşlıq imkanlarının qiymətləndirilməsi baxımından rolu və nə dərəcədə əhəmiyyətli olduğu diqqəti cəlb etməyə bilməz.***

## Platformanın faydalı, əhəmiyyətli olacağına, regionda sülhü təmin edəcəyinə ümidlər böyükdür

İlk növbədə diqqətə çatdıraq ki, regional əməkdaşlıq platforması Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 44 günlük müharibə bitdikdən, Azərbaycan qələbə qazandıqdan az sonra, daha dəqiq desək, 2020-ci ilin dekabr ayında yaradılıb. Doğrudur, bu formatın gələcəyi, hansı nəticələr verəcəyi barədə saysız-hesabsız suallar, maraqlı məqamlar var. Ələlxüsus da həmin formatın tam hüquqlu əməkdaşlıq platformasına çevriləcəyi ilə əlaqədar düşündürücü suallar az deyil. Məsələn, “3+3” Regional Məşvərət Platformasının xarici işlər nazirləri səviyyəsində İstanbulda keçirilən üçüncü iclasa Gürcüstanın qoşulmaması diqqəti cəlb edən məqamdır və belə bir sual yaranır ki, görəsən, nəyə görə qonşu ölkə bu tədbirdə iştirak etməyib və sözügedən formata gələcəkdə qoşulacaqmı? Təbii ki, söhbət regionda sülhün bərqərar olunmasından, təhlükəsizliyin təminatından, eləcə də stabillikdən gedirsə, Gürcüstanın da həmin bu formata qoşulacağına ümid etməyə dəyər. Hər halda bu formatın, bu layihənin əhəmiyyətini, eləcə də perspektivlərini rəsmi Tbilisinin layiqincə qiymətləndirəcəyi daha inandırıcı görünür. Ümumiyyətlə, region ölkələrinin həmin bu platformaya, həmin bu formata xüsusi həssaslıqla yanaşacağına ümid etmək daha məntiqidir. Çünki region ölkələrinin bundan sonra sülh və əmin-amanlıq şəraitində, mehriban qonşuluq şəraitində yaşamaları üçün məhz bu platformanın əhəmiyyəti danılmazdır və düzgün qiymətləndiriləcəyi də şübhə doğurmur. Təbii ki, əgər Ermənistan kimi bir dövlət tərəfindən xarici müdaxilələrə rəvac verilməsə, kənar oyunçuların, hansısa dövlətlərin və qüvvələrin regiona burun soxmasına, bu formata mane olmasına şərait yaradılmasa haqqında qeyd olunan platformanın faydalı, əhəmiyyətli olacağına, regionda sülhü təmin edəcəyinə ümidlər böyükdür.

## Müstəqil siyasət yürütmək, kənar müdaxilələrdən qorunmaq, inkişafa nail olmaq üçün region ölkələri bu formatı qəbul etməlidirlər

Qeyri-regional oyunçuların, kənar qüvvələrin bölgəmizə burun soxması, hətta qızışdırıcı, dağıdıcı niyyətlə müdaxiləsi fonunda region üçün aktual məsələləri müzakirə etməyin və kompromis həll yollarını tapmağın region ölkələri üçün nə dərəcədə əhəmiyyətli olduğunu başa düşmək heç də çətin deyil. Ümid edirik ki, bunu ilk növbədə Ermənistan və eləcə də tədbirdə iştirak etməyən Gürcüstan tərəfi də başa düşür. Hər halda başa düşürlər ki, ABŞ və Fransa kimi ölkələrin Cənubi Qafqazı qarışdıraraq, qızışdıraraq və parçalayaraq idarə etmək niyyəti region ölkələri üçün ən azından arzuolunan deyil. Yəni, sərt şəkildə desək, daha yumşaq tərzdə ifadə etmiş olsaq, Qərbin parçalayaraq hökm sürmək istəyi və niyyəti regionun heç bir ölkəsi tərəfindən xoş qarşılanmamalıdır və bu




çirkin niyyətin qarşısının alınması üçün eyni bir formatı, platformanı qəbul etmək daha məqsədəuyğun, daha doğru addım sayılır.

Dəfələrlə şahidi olmuşuq ki, ABŞ, Qərb demokratiya adlı ənənəvi oyun ilə region ölkələrinə soxulduğu zaman həmin ölkələrdə ancaq xaos, qarışıqlıq, hətta vətəndaş müharibəsi təhlükəsi müşahidə olunub. Azərbaycan belə oyunlara imkan verməsə də, rəsmi Bakı həmin oyunların vaxtında qarşısını aldığı üçün bunun nümunəsini ancaq Ermənistanda və Gürcüstanda görmüşük. İndi bu zərərli və təhlükəli müdaxilələrdən qorunmaq üçün ən çox Ermənistan və Gürcüstan məhz sözügedən formatda maraqlı olmalıdır. Ən azından ona görə maraqlı olmaq lazımdır ki, region ölkələri hansısa kənar qüvvələrin təsirlərinə məruz qalmasınlar və hər bir ölkə öz müstəqil siyasətini yürüdərək, bütün istiqamətlərdə inkişafa nail olsun. Məsələ burasındadır ki, Qərb, ABŞ qətiyyən region ölkələrinin müstəqil siyasət yürütməsini istəmir, öz siyasətini yeritməyə çalışır və məhz ən azından bundan yaxa qurtarmaq üçün Ermənistan da, Gürcüstan da məlum formatı qəbul etməyi doğru addım hesab etməlidir. Bir sözlə, müstəqil siyasət yürütmək, kənar müdaxilələrdən qorunmaq, inkişafa nail olmaq üçün region ölkələri bu formatı qəbul etməlidirlər.

## Hansısa razılığa gəlməyin, kompromisin əhəmiyyətini nəzərdən qaçırmaq olmaz

Doğrudur, Cənubi Qafqazda Regional Əməkdaşlıq Platformasının iştirakçıları arasında ziddiyyətlər də mövcuddur. Bunu inkar etmək, əsini söyləmək kimi bir niyyətimiz də yoxdur. Əgər sülh müqaviləsi hələ imzalanmayıbsa, deməli, Ermənistan və Azərbaycan arasında hansısa ziddiyyətli məqamların ola bilməsi, bundan sonra da olma ehtimalı təkzib edilə bilməz. Eyni zamanda, Tehranın Ankaranın həm regionda, həm də onun hüdudlarından kənarda hansısa təsirlərindən dolayı İran və Türkiyə ilə bağlı da müvafiq fikirləri söyləmək olar. İranın hadisələrə müdaxilə etmək cəhdləri fonunda Türkiyənin məsələyə qarışması da bu baxımdan təsadüfi deyil. Məsələn, ən azından, Zəngəzur dəhlizi ilə bağlı fikir ayrılıqlarını nümunə kimi göstərə bilərik. Çünki İranın həmin dəhlizə mane olmaq niyyətini də, Türkiyənin isə bu layihə ilə bağlı dəstək vermək niyyətini də görməkdəyik və niyyətlərin toqquşması fonunda qeyd olunanlar təkzibedilməzdir. Bununla belə, hansısa razılığa gəlməyin, kompromisin də əhəmiyyətini də nəzərdən qaçırmaq olmaz və ümid edirik ki, bunu İran tərəfi də düzgün dəyərləndirəcək.

Region ölkələrinin hər biri qəbul etməlidir ki, hansısa dialoq, hansısa razılıq, müvafiq şəkildə ortaq məxrəcə gəlmək, ümumiyyətlə dialoqun olmamasından üstün məqamdır. Daha açıq şəkildə dedək, ümumiyyətlə, dialoqun olmamasındansa, hansısa formatda bir dialoqun olması daha üstündür. Bir halda ki, Cənubi Qafqaz indi seçim qarşısındadır və qlobal proseslər fonunda bu seçimin daha aktual olması təkzib edilə bilməz, deməli, region ölkələri regionun ümumi gələcəyi ilə bağlı öz aralarında ortaq qərara və razılığa gəlməlidirlər. Bu baxımdan da region ölkələrinin və qlobal oyunçuların maraqlarını nəzərə almaqla, regionun inkişafı üçün əsas prinsipləri hazırlamaq ən vacib məsələ hesab olunmalıdır. Məhz bu yanaşma prioritet hesab olunsa, haqqında qeyd olunan platforma regionun hər bir ölkəsi üçün əvəzsiz hesab ediləcək.

İmkanları dəyərləndirməyin əhəmiyyətli olması fonunda sözügedən formatla bağlı nikbin proqnozlar verməyə haqqımız çatır

Nəzərə almaq lazımdır ki, iqtisadi baxımdan dünyanın ən inkişaf etmiş və ən sürətli şəkildə inkişaf etməkdə olan ölkələri Cənubi Qafqaza maraq göstərirlər. Region ölkələri nəzərə almalıdırlar ki, həmin ölkələrin belə maraqlarını düzgün dəyərləndirmək iqtisadi baxımdan da olduqca əhəmiyyətlidir. Əgər müvafiq razılığa gəlinərsə, region ölkələri arasında komunikasiyaların açılması gözləniləndir və bunun əhəmiyyətini də başa düşmək heç də çətin deyil. Ən azından unutmaq lazım deyil ki, Çin və Hindistan kimi ticarət nəhəngləri artıq ölkələrimizdən keçəcək meqa ticarət magistrallarını inkişaf etdirməyə başlayıblar. İlk növbədə nəzərə alınmalıdır ki, bu, qlobal prosesdir və son 500 ildə, ən azı, Böyük İpək Yolunun bərbad vəziyyətə düşdüyü və dünya ticarət oxunun okean ticarət yollarına keçdiyi 17-ci əsrdən bu vaxta qədər mövcud olmayan imkanlar deməkdir. Hər halda, bu imkanları dəyərləndirməyin nə dərəcədə əhəmiyyətli olmasını başa düşməyən Cənubi Qafqaz ölkəsi yoxdur və bu baxımdan da sözügedən formatla bağlı nikbin proqnozlar verməyə cəsarət etməkdə özümüzü haqlı hesab edirik.

Doğrudur, haqqında qeyd olunan format, həmin bu platforma ilk növbədə regionumuzda sülhün və sabitliyin qorunması baxımından daha qiymətli, daha əhəmiyyətlidir. Amma bununla belə, iqtisadi məsələləri də hesaba almamaq və həssas yanaşmamaq doğru olmaz. Çinin, Hindistanın, Avropanın diqqət mərkəzində olan regionda sülhün, təhlükəsizliyin, stabilliyin davamlı olmasını təmin etməyin nə dərəcədə əhəmiyyətli olmasını bir sözlə ifadə etmək çətin olsa da, başa düşmək asandır. Deməli, imkanları dəyərləndirməyin əhəmiyyətli olması fonunda sözügedən formatla bağlı nikbin proqnozlar verməyə haqqımız çatır.

***İnam Hacıyev***

# AİLƏ: hüquqdan çox hörmət

***Ailə dedikdə ilk ağıla gələn kişi və qadın olur. Ailədə ilkin vəzifələri ata və ana olan kişi və qadın. Bu vəzifələr təbii ki, uşaq dünyaya gələndən sonra yaranır. Elə ailədə uşaq doğulandan sonra onlarla yeni vəzifə də meydana gəlir. Lakin biz bəzən bu vəzifələrin nədən ibarət olduğunu anlayır, anladığımıza görə də öhdəsindən gəlməyə çalışırıq. Bəzən isə vəzifələrimizin nədən ibarət olduğunu dərk etmədiyimizə görə müəyyən problemlərlə qarşılaşırıq.***



Tək uşaqlarla bağlı yox, kişi və qadını bir araya gətirən ailədə onlarla hüquq və vəzifələr vardır ki, bunlar qarşılıqlı şəkildə qorunur, həyata keçirilir və yaxud da əksinə... Belə isə bu yazımızda ailələrimizdən, kişi-qadın hüquq və vəzifələrindən söhbət açaq.

## Qarşılıqlı hörmət, sayğı ailənin təməl daşıdır

Hələ ailədə vəzifələr formalaşmazdan əvvəl qadın və kişinin bir-birinə hörmət və sayğısı ailənin təməl daşıdır. Yəni evliliyin ilk günündən ailədə münasibətlər necə qurularsa, sonrakı dövrdə də o cür davam edəcəkdir. Bu, "Ailə" adlı kitabın ilk səhifəsidir. O səhifəyə ilk gündən hansı dəsti-xətlə yazmağa başlanarsa, sonadək o dəsti-xətlə də davam edəcək.

Ailədə hörmət və sayğı nədir? Ailə yeni qurulub. Yeni ailə ya özünə məxsus mənzildə, ya da oğlanın atasının evində yaşayır. Yəni bu, əvvəlcədən-yəni toydan əvvəl məlum olduğundan həm kişi, həm də qadın hər iki hala hazır olmalıdır.

Yeni qurulan ailələrin ayrı yaşaması daha məsləhətdir. Düzdür, bizdə tarixən ailə ailə içərisində yaşayıb. Və belə bir təsəvvür formalaşıb ki, bir oğlun varsa, onu ayırmaq olmaz, el səni qınayar. Əgər iki-üç oğlun varsa, o birilər evlənənə kimi bu ailə səninlə bilikdə yaşamalıdır. Qədim adət-ənənələrimizə, ailə dəyərlərimizə böyük sayğı ilə yanaşırıq, bu, hər birimizin də borcudur. Ona görə ki, bu dəyərləri biz yalnız öz övladlarımıza verməklə yaşada bilərik. Lakin ailə dəyərlərimiz tək ailə içərisində ailənin yaşaması deyil. Minlərlə dəyərlərimiz var ki, onlar necə ki, bu günədək yaşadılıb, bundan sonra da yaşadılacaq.

Lakin ailə içərisində ailənin yaşamasına bu günün prizmasından baxdıqda, həqiqətən çətinliklərin yarana biləcəyi də gözlər önünə gəlir. Məsələn, yeni qurulan ailədə qadının bu ailəyə uyğunlaşması, bu evin qayda-qanununu bilməsi üçün zamana ehtiyac var təbii ki. Bu baxımdan da həm qayınana, həm də gəlin səbirli olmalıdır ki, o zaman gəlib keçsin və hər şey öz qaydasına düşsün. Lakin bəzən qarşılaşdığımız hadisələr bunların əksini göstərir. İki-üç aylıq gəlinlər qayınana tərəfindən məzəmmət edilməyə başlanır. Qayınana gəlinə səhər yuxudan gec oyandığını, yoldaşını onun işə yola saldığını, bir əşyanın yerinin bura deyil, ora olduğunu dəfələrlə söyləməklə, münasibətlərin pozulmasının təməlini qoyur.

Hər bir qadının eyni xarakterdə olmadığını nəzərə alsaq, təbii ki, buna qarşılığın da oxşar olmadığını asanlıqla demək olar. Bəli, qayınananın iradlarını bir qadın bir cür, digəri isə başqa cür qəbul edir. Bu, ya elə ilk aylardan münasibətlərin pozulması ilə, ya da səbir edib hər şeyin qaydasına düşməsini gözləməklə nəticələnir. Təbii ki, bu münasibətlər ər-arvad münasibətlərinə də təsir edir və onlar arasında ilk aylardan söz-söhbətin yaranmasına şərait yaradır. Belə olanda kişi tərəfindən qadının vəzifələri sadalanmağa başlayır.

## Müəyyən edilən vəzifələr

Bəli, belə olanda kişi qadın üçün vəzifələr müəyyən etməyə başlayır: sən bu evin gəlinisən, səhər hamıdan əvvəl oyanmalısan, süfrəni hazırlamalısan, hamını işə yola salmalısan, sonra təmizliklə məşğul olmalısan, evin bütün iş-gücünü görməlisən, anam illərdir ki, bizim qayğımızı çəkir, ta yaşlaşıb, qoy dincəlsin.

Bunun qarşısını kim almalıdır? Əlbəttə, valideynlər. Gəlin daha çox qayınanası ilə təmasda olduğu üçün ilkin münasibətlərin qorunmasına, səhv vəzifələrin qoyulmamasına da o cavabdehdir. Qayınana evdə öz vəzifələrini normal şəkildə həyata keçirirsə, həyat yoldaşı ilə hüquq və vəzifələrini düzgün idarə edə bilirlərsə, deməli, bu, yeni qurulan ailə üçün də nümunə olacaqdır. Yoxsa qayınana vaxtilə öz qayınanası tərəfindən sıxışdırılıbsa, el içində deyildiyi kimi, qul kimi işlədilibsə, gözünün yaşı qurumayıbsa, hüququ, vəzifəsi bilinməyibsə, o da bu gün bunun acığını öz gəlinindən çıxırsa, bu, əsla düzgün deyil və yeni ailənin təməl daşını laxladacağına şübhə yoxdur. Əksinə, qayınana öz qayınanasından fərqli olarsa, gəlinini öz qızı kimi qəbul edərsə, özünün vəzifəsinin nə olduğunu, gəlinin vəzifəsinin nə olduğunu bilərsə, söz-söhbətin yaranmasına çalışarsa, səbirli olarsa, bunun yeni ailəyə də müsbət təsiri böyük olar.

Ən yaxşı hal isə odur ki, qayınana gəlini ilə qarşılıqlı anlaşa bilsin. Yəni gəlinin bacarmadığı işi, səhv hərəkətini onu acılamaqla yox, qarşısına əyləşdirib səmimi söhbətlə başa salsın. Belə olan halda bütün münasibətlər ilk gündəki kimi sayğılı olacaq və belə də davam edəcək. Çox təəssüf ki, əsrlər, illər gəlin-qayınana münasibətlərini əsla tənzimləyə bilmir. Təbii ki, qayınananın qarşısında hələ də acizdir ki, qayınana-gəlin münasibətlərində hansı tərəf haqlı, hansı tərəf haqsızdır. Bu, illərin gündəm mövzusu olsa da, gəlinlə qayınana arasındakı 25-30 yaş fərqi haqlı tərəfin kim olduğunu özü söyləyir. Əlavə izaha ehtiyac yoxdur. Beləliklə də vəzifələrin səhv təyin olunması ailədə ilkin münasibətlərin pozulmasına, ər-arvad arasında soyuqluğun yaranmasına səbəb olur. Həmin ailə sonralar ata evindən ayrılıb müstəqil yaşamağa başlasa da, münasibətlər bərpa oluna bilmir, çünki təməl artıq silkələnmişdir.

## Müstəqil yaşayan ailələr

Belə də olur ki, ailə evliliyin ilk günündən sərbəst yaşamağa başlayır. Bu halda da qadın və kişi vəzifələrinin nədən ibarət olduğunu yaxşı bilməlidir. Yoxsa münasibətlər tamamilə pozular. Məsələn, qadın bir gün ərzində hara gedəcəyi, haradan gələcəyi barədə həyat yoldaşına məlumat verməlidir. Bu, böyük etikadır ki, həyatı bir yerdə paylaşmağa qərar verən iki nəfərin bir-birilərinin harada olması haqqında məlumatları olur. Bəzi gənclərimiz var ki, bunu qətiyyən qəbul etmək istəmir, icazə kimi başa düşürlər. Lakin bu, icazə deyil, sadəcə məlumat xarakterlidir. Eynilə də kişi, o, əgər işdən sonra dostu ilə və yaxud işlə bağlı görüşü olacaqsa, bu barədə həyat yoldaşına xəbər verməlidir. Bu, onun vəzifəsidir, çünki ailəlidir, evdə gözləyən var və onun hüququdur ki, həyat yoldaşının harada olduğunu bilsin.

Elə ki, uşaq dünyaya gəlir, bundan sonra isə ailədə yeni vəzifələr müəyyənləşir. Yeni uşaq ortaq bir anlamda olduğu üçün sözsüz ki, vəzifələr də ortaq olmalıdır. Yoxsa kişi bütün gün uşağa baxmasını, gəzintiyə çıxarılmasını, üstəlik də evin digər işlərinin də öhdəsindən gəlməsini qadının vəzifəsi hesab edirsə, bu, tamamilə yanlışdır və qadının hüquqlarına qarşı sayğısızlıqdır. Kişi "uşağın səsini kəs, mən gecəni yatmasam, sabah necə işə gedərəm" deyirsə, həyat yoldaşına qarşı böyük hörmətsizlik edir. Onsuz da ərinin işə gedəcəyini düşünən hər bir qadın gecələr uşağı sakitləşdirməyə can atır.

Uşaq qarşılıqlı şəkildə, köməkliklə böyüdülməlidir. İlk aylarda uşaq təbii ki, ailənin normal yaşayışını pozacaq. Gecə yuxusuzluğu da olacaq, gündüz narahatlığı da. Lakin bunların hər birinin öhdəsindən gəlmək qadının vəzifəsi olaraq qəbul edilərsə və ona heç bir köməklik göstərilməzsə, bu, doğru olmaz.

Müstəqil yaşayan ailələr uşaqlar dünyaya gələnədək iki nəfərdən ibarət olduqlarına görə burada hüquq və vəzifələr daha aydın şəkildə görünür. Bu hüquq və vəzifələrə əvvəldən hansı sayğı ilə yanaşılarsa, sonrakı dövrdə də o cür davam edəcəyinə şübhə yoxdur. Uşaqlar doğulandan sonra isə ailədə kimin hansı vəzifəyə malik olması sayğı ilə də davam olunur. Bir sözlə, evdə məişət tullantısını atmaqdan tutmuş, uşaqları bağçaya, məktəbə aparıb-gətirməyədək, evin bazarlığınadək hər biri qarşılıqlı anlaşma şəklində görülməlidir.

## Hörmət ailənin təməl daşıdır

Bəzən düşünürük ki, ailələr nə üçün dağılır. İnanın ki, dağılan ailələrin əksəriyyəti sayğısızlıq səbəbindən dağılır. Sayğısızlıq bəzən o həddə çatır ki, insan buna dözə bilmir. Məsələn, qayınananın "gəlin mənim süpürgəmdir, haraya qoysan, orada da dayanmalıdır", "gəlin məndən icazəsiz ata evinə gedə bilməz" və yaxud "gəlin olan yerdə mən nə üçün yemək hazırlamalı, qab yumalı, süfrə açmalıyam" kimi iddiaları sayğısızlıq deyil, bəs nədir? Dünənədək bütün işlərini özü görən, qızına qab yudurtmayan qayınana necə olur ki, gəlin gələndən sonra bunlardan imtina edir?

Və yaxud da müstəqil yaşayan ailələrdə ər işdən gəlir ki, arvadı evdə yoxdur. Bu ər arvadını harada axtarmalıdır, maraqlı deyilmi? Arvad gedib atası evinə, rəfiqəsi ilə görüşməyə çıxıb, evdən xeyli aralıda yerləşən mağazaya gedib, bu barədə ərinə məlumat verməyib. Ər belə olan təqdirdə onu harada axtarmalıdır? Axtarması necə, doğrudurmu? Və yaxud uşağı bağçaya, məktəbə aparmaq-gətirməyi ər-arvad bir-birilərinin üstünə atırlar. Ər deyir bu, mənim vəzifəm deyil, arvad deyir ki, bəs mənim necə, vəzifəmdir? Ər də bunun qarşılığında deyir ki, doğmusan, aparmalısan da, gətirməlisən də. Bax burada ən birinci gözə görünən sayğıdır. O sayğı ki, artıq yavaş-yavaş tükənməyə başlayır. Tükəndikcə bir evin təməl daşı zədələnməyə başlayır. Beləliklə, üst-üstə gələn bu kimi problemlər həmin təməl daşını zədələyə-zədələyə bir gün tamamilə yıxılmasına səbəb olur. Ailə dağılır, hər kəs bir tərəfə üz tutur, uşaqlar travma alır, bir gələcək məhv edilir.

Lakin olmaz ki, kişi və qadın qarşılıqlı sayğı ilə evin bütün işlərinin öhdəsindən gəlsinlər? Təbii ki, olar. Lakin insanın içindəki "mən"lər buna imkan verərsə...

Kişi qadının, qadın isə kişinin iş rejimini, vaxtını düzgün hesablaya bilərsə, bir-birilərinə hansı işlərdə kömək edə biləcəklərini də planlaşdıra bilərlər. Beləliklə də "sənin vəzifəndir", "mənim vəzifəmdir" sözlərini də işlətməyə lüzum qalmaz, qarşılıqlı anlaşma və əsasən də sayğı şəraitində həyat sakit və mehribanlıqla ötər.

## Sayğı hüququ üstələyir

Hər bir ailədə həm kişinin, həm də qadının özünəməxsus hüquq və vəzifələri vardır. Vəzifələr ayrı-ayrı olsa da, hüquq bərabərdir. Lakin hüquq bərabərliyi var deyə, biz ailə dəyərlərimizdən, adət-ənənələrimizdən vaz keçə bilmərik. Bəli, qadın və kişi hüquqları bərabərdir, lakin azərbaycanlı ailəsində hörmət və sayğı deyilən anlayışlar da var ki, əsrlərlə hüququn yerini onlar almışlar. Elə bir formada almışlar ki, hüquq yada belə düşməmişdir.

El ailələrimiz olub ki, onlar bütün şəhərə, kəndə nümunə olublar. Belə ailələrdə heç vaxt hüquq, vəzifə söhbəti getməyib. Yeri gələndə, kişi samovar salıb, çay dəmləyib, bütün ailəni çay içməyə dəvət edib. Yeri gələndə, evin birgünlük yeməyini hazırlamağı boynuna çəkib. Evdə qonaq çox olanda əlinə məcməyi götürüb kişi qonaqlara qulluq edib. Yeri gələndə, axşamçağı evə vedrələrlə su daşıyıb. Uşağı yatırdıb. Ev işlərində yoldaşına köməklik göstərib.

İllər öncə, yadımdadır, kəndə gedəndə babamın nənəmə hər dəfə çörək bişirərkən köməkliyini heç vaxt unutmuram. Baş qarışardı təndirdə, bir də görərdik ki, baba çay dəmləyib, çaydan-çaynik, bir məcməyi stəkan-nəlbəki əlində gəlir. Gətirib qapıdan verib gedərdi. Nənəm südü sağardı, babam vedrəni götürüb zirzəmiyə apardı.

Nənəm də kişiyə məxsus işlərdə babama kömək edərdi. Babam yer belləyəndə belin birini də nənəm götürərdi. Onunla bərabər ləklər düzəldər, şitil, toxum əkərdi. Odun doğrayardılar, mişarın bir tərəfindən babam, bir tərəfindən nənəm tutardı. Bütün bu söylədiklərim nənə və babamın simasında minlərlə azərbaycanlı ailəsinə aiddir. Qadınlarımız həmişə ot biçini zamanı kişilərə kömək üçün onlarla birlikdə çölə gediblər. Deməyiblər ki, yox, bu, mənim vəzifəm deyil. Kişilər də onları zorla aparmayıblar. Qadınların hüquqlarına hörmətlə yanaşıblar.

Bizim ailə dəyərlərimizdə hər zaman sayğı hüququ üstələyib. Məhz buna görə də gözəl ailə dəyərlərimiz formalaşa bilib. Buna görə də ən uzunömürlü ailələr Azərbaycanda mövcuddur. Bütün bunlara görə də ailələrimiz "Gümüş toy", "Qızıl toy", "Brilyant toy"larını qeyd edə bilirlər. Deməli, gözəl ailələrimiz və ailə dəyərlərimiz var. Deməli, aramızda vəzifə bölgüsü yoxdur. Hüquq seçkiliyi yoxdur. Biz hər işdə bərabərik, həmrəyik. Elə həmrəy, vətənpərvər övladlarımız da bu dəyərli ailələrin tərbiyəsi nəticəsində çoxluq təşkil edir. Bunu 44 günlük Vətən müharibəsində də gördük. Gördük ki, övladlarımız necə vətənpərvər, necə həmrəydirlər. Elə bu dəyərlərlə də Zəfər qazandıq. Düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. Bu Zəfər həm də ailələrimizdəki tərbiyənin Zəfəri idi. Çünki sayğı olan yerdə ağsaqqal var. Ağsaqqal olan yerdə doğru yol, doğru seçim var.

***Mətanət Məmmədova***

# Maksim Nikulin: "Bakıda yeni sirk meydançasının təşkilinə kömək edəcəyik"

*Moskva Sirki Bakı Sirkinə müvəqqəti sirk çadırı təşkil etməyə kömək edəcək. Bu barədə "Moskva-Baku" portalına "Tsvetnoy" bulvarındakı Moskva Nikulin Sirkinin baş direktoru və bədii rəhbəri Maksim Nikulin məlumat verib. O, həmçinin bakılı həmkarları ilə əməkdaşlığın hansı formatda həyata keçiriləcəyi və Bakıda sirk məktəbinin açılmasının nə üçün zəruri olması barədə danışıb. Həmçinin Nikulin Sirkinin baş direktoru Bakıya səfər və görüşlər barədə təəssüratlarını, atası Yuri Nikulinin iştirakı ilə "Brilyant əl" filminin çəkilişləri ilə bağlı xatirələrini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.*



**- Maksim Yuryeviç, bu yaxınlarda Bakıda xarici sirk rəhbərləri ilə Azərbaycanın mədəniyyət naziri arasında sizin də iştirak etdiyiniz görüş keçirildi. Həmkarlarla və nazirlə hansı əsas mövzular müzakirə olunub?**

- Biz Azərbaycana Bakı Sirkinin direktorunun və Azərbaycan Mədəniyyət Nazirliyinin dəvəti ilə gəlmişik. Müzakirə etdiyimiz mövzulardan biri də Bakıda sirkin yenidən qurulması üçün bağlanması oldu. Bu proses təxminən 5 il çəkəcək və belə uzun müddət Azərbaycanı sirksiz qoymaq mümkün deyil. Üstəlik, Bakı sirk şəhəridir, burada insanlar sirki sevirlər və həmişə orada olublar. Biz bu gün ən mütərəqqi sirklərin nümayəndələri ilə bu məsələni müzakirə etdik. Bakıdakı görüşə "Tsvetnoy" bulvarındakı Moskva Nikulin sirkimiz, Kazan və Belarus sirkləri gəlmişdi. Bunlar öz artistləri, məktəbləri və öz proqramları olan sirklərdir. Biz birlikdə Azərbaycana kömək edə bilərik. Macarıstandan dostumuzu da dəvət etdik. Peter Feketeon Budapeşt Sirkinin baş direktoru, Mərkəzi Avropa Sirk Sənəti Assosiasiyasının prezidentidir. Bir vaxtlar Macarıstanda mədəniyyət naziri olub. Onların da böyük sirk çadırı var. Ona görə də biz birlikdə Bakıda müvəqqəti sirk, müvəqqəti çadır arenası yarada bilərik. Bu mövzuda Azərbaycanın mədəniyyət naziri ilə görüş keçirdik və Bakıda Rus Evində bu barədə danışdıq.

**- Bakıda çadır yaratmaq üçün hər hansı müddət müəyyən etmisinizmi?**

- Çadır qurmaq çox çəkməyəcək. Əgər tələsmirsinizsə, bunu təxminən iki ay ərzində edə bilərsiniz. Ancaq platformanın harada yerləşəcəyinə səlahiyyətlilər qərar verəcək. Onlar həm camaat, həm də sirkin özü üçün daha sakit və daha rahat olacağı yer seçməlidirlər. Parametrlərimizi səsləndirdik, bu ideyanı həyata keçirmək üçün bizə nə lazımdır. Bu parametrlərə ərazi, əlçatanlıq, heyvanlar və rəssamlar üçün imkanlar və s. Şəhər və respublika rəhbərliyi tərəfindən anlayış var, ona görə də hesab edirəm ki, biz bu məsələni tez həll edəcəyik. Prinsipcə, heç nə mane olmazsa, gələn ilin yazına kimi işə və əməkdaşlığa başlamaq mümkün olacaq. Və biz fəal əməkdaşlığa hazırıq. Biz tura gəlməyi planlaşdırırıq, çünki əməkdaşlıq və icma, mübadilə və işdə maraqlıyıq.

**- Moskva sirki bir müddət əvvəl Azərbaycana qastrol səfərinə gəlmişdi. Burada sirk sənətinin inkişafını necə qiymətləndirə bilərsiniz?**

- Mən artistləri tanıyıram, amma indi respublikada sirkin inkişafından danışmaq çətindir, çünki bunun üçün hələ xüsusi əsas yoxdur. Elə indi, elə Bakıda keçirilən iclasda Bakı Sirkinin yeni tikilən binasında sirk məktəbi üçün yerlərin olması ilə bağlı müzakirələr gedirdi. Kazan sirkində və Minskdə belə məktəblər var. Bizim Moskva sirkində, təəssüf ki, məktəb yoxdur, çünki bizim tariximiz bir az fərqlidir. Biz özəl şirkətik və bunun üçün büdcəmiz yoxdur. Amma gələcəkdə məktəb yaratmağı planlaşdırırıq. Axı hər hansı bir inkişaf uşaqlıqdan başlayır. Azərbaycanda uşaqlara sirk sənətini öyrədən, onları ona cəlb edən baza yarananda, o zaman inkişaf prosesi başlayacaq.

**- Uzun müddətdir Bakıda olmusunuz? Şəhər dəyişib?**

- Mən 4 il əvvəl Bakıda idim, ondan əvvəl də çox uzun müddət qabaq olmuşdum. Və "çox uzun müddət əvvəl" ilə "dörd il əvvəl" dövrü müqayisə etsək, təzad, əlbəttə ki, təəccüblüdür. Onu da deyim ki, dörd il ərzində Azərbaycanın paytaxtında çox şey dəyişib. Mən Bakını çox sevirəm. Çox isti, sakit, qonaqpərvər şəhərdir. Bakıda isə sirk tamaşaçıları, dediyim kimi, sirki çox sevirlər. Azərbaycanda həmişə çox gözəl qəbul olunmuşuq. Ona görə də bütün bunlar yenidən canlandırılmalı və davam etdirilməlidir.

**- Bakıda insanlar sirki, atanız Yuri Nikulini və Bakıda çəkilmiş "Brilyant əl" filmini sevirlər. Siz də bu filmdə rol almısınız......**

- Bəli, çəkilişdə olmuşam, amma kiçik bir epizod idi. Mən Andrey Mironovun cığırdan suya itələdiyi bir oğlanı oynadım. Bu, Bakıda deyil, Tuapsedə çəkilib. O vaxt atamla çəkiliş üçün Bakıya getməmişdim, amma bilirəm ki, orada onu çox isti qarşılayıblar. Yerli sakinlər atamı hər gün onlara baş çəkməyə dəvət edir, ona və bütün çəkiliş qrupuna Azərbaycan yeməkləri təqdim edirdilər... Bu dövr haqqında çox az xatırlayıram, amma bu xatirələr çox xoşdur.

***Tərcümə - Elçin Bayramlı***

# Yaxşı ki, yoxsunuz, ölülər!

***Atalarımız deyirdi ki, bir insanı tanımaq üçün bir ömür yetmir. Desəm ki, hələ dünya yaranandan insanları tanımaq üçün "Tiktok" qədər əlverişli yer olmayıb, mənə inanın, həm də çox inanın. Görün, bu sosial şəbəkə necə bir yerdir ki, burada əziyyət çəkib kimi isə tanımaq üçün ömür, beş il, on il lazım deyil, özləri özlərini bir anın içərisindəcə sənə tanıdırlar. Atalarımızın o bir ömrə tanımadıqlarını burada bir baxışla tanımaq olur.***

## FELYETON



Məsələn, Həsənqulu kişi vardı, Allah rəhmət eləsin, köhnə kişilərdən idi. Sanballı adamdı. Onun bir nəticəsi var. O gün "Tiktok"da görürəm ki, qolu-qıcı döyməli rəqs edir. Baxdım-baxdım, dedim, əhsən sənə, babası adam görəndə utandığından başını salırdı aşağı, salam verəndə adamın gözünün içinə də baxmağa çəkinirdi. Maşallah, bu uşaq gör nə qədər müasirdir. Halal olsun, bala, sənə. Babana oxşama, müasir ol.

Zəhra xalanın da bir qız nəvəsi var. O gün baxıram ki, "Tiktok"da sinəsi-başı açıq, canlı söhbətdədir. Dedim maşallah, gör nə müasir qızdır. Yazıq nənəsi ölənədək yaşmağını ağzından çəkmədi. Köynəyi boğazından bir barmaq aşağı enmədi. Ancaq nəvəsinə bax, bir də, maşallah, olsun. Nə qədər dəbli geyinib, çıxıb milyonlarla insanın qarşısına. Kişi, qadın, uşaq-böyük bilmir, canlıda canlı-canlı da söhbətlər edir.

Həsən kişi vardı, yaxşı tanıyırdım, hamı onun haqqında deyirdi ki, qızdan-gəlindən abırlıdır. Kişinin 5 qızı vardı, oğlu yoxdu. Haqqında camaat deyirdi ki, yazıq o qədər utancaqdı, oğlu da olmadı. Utancaqlığın oğlan olmasına dəxlinin nə olduğunu bu günədək dərk etməsəm də, amma bizdə belə bir deyim o vaxt, bu vaxt deyilməkdədir ki, utananın oğlu olmur. Yəqin nəvəsi də bunu eşidib. Deyib babam utancaq olub nə edib ki? Ona görə də utanmağın daşını ətəyindən töküb. O günləri baxıram ki, "Tiktok"da bir qıznan küçənin ortasındaca qol-boyun gəzir, hələ başqa şeylər də vardı, lakin onu deməyə utanıram. Əsla utanmasızadı da yox idi. Elə bil o babanın nəvəsi deyildi. Dedim, maşallah sənə, oğul, nə badə babana oxşayasan. Gəz, dolan, bax belə, afərin.

Hə, hələ kimdən deyim ey, Gülsüm xalanın qızından. Bu yaxınlarda yazıq arvad rəhmətə gedib. Rəhmətlik çox abırlı-həyalı qadın idi. Evdən eşiyə çıxmazdı. Bazar, dükan tanımazdı. O gün baxıram ki, onun da qızı bu "Tiktok"dadır. Çox qəşəng, dəbli, geyinib-kecinib çıxıb camaatın qarşısına, onlara məsləhət verir ki, qayınana ilə belə davranın, ona çox üz verməyin. Baldız ilə belə davranın, hər işinizə qarışmasına yol verməyin. Maşallah, dedim, sənə, çox maşallah. Elə anadan belə qız? Ana bayıra çıxmırdı utandığından, qızsa milyonlara, budur, həyat dərsi keçir. Afərin, bax, müasirlik budur.

Heydər əminin də haqq üçün deyim, hər kəs xətrini çox istəyirdi. Kişi kimi sözünü deyən idi. Ailəsi də bir yumruq idi. Bir barmaq oradan azacıq açıla bilməzdi. Nəvəsi var, qızdı, o gün baxıram ki, "Tiktok"da. Həm də burada nə edir? Dəridən-qabıqdan çıxır, özünü makyaj edir, gənc qızlara necə makyaj etməyi öyrədir. Dedim, maşallah, sənə, belə qız. Ata-baba qayda-qanununun ziddinə belə gedərlər bax. Babası qızlarını qoymurdu ki, üzlərinə bircə qırıq ənlikdən-kirşandan sürtə, ancaq nəvə gör o dövrü, o dövrün qanunlarını necə devirdi. Əhsən sənə, belə qız...

Züleyxa xala da sayılıb-seçilən arvadlardan idi vaxtilə. Sözünün qarşısına söz deyən olmazdı. Oğlanlarını da, gəlinlərini elə yığıb-yığışdırmışdı ki, bir kəlmə artıq söz danışanı ola bilməzdi. Onun da bir nəticəsi var, baxıram ki, bıy, bu da "Tiktok"dadır. Hər gün bir video çəkib qoyur bura, qayınanasını məsxərəyə qoyur. Deyir, ay qızlar, qayınana kimdir ki, mənim işlərimə qarışa. Yoldaşım ona bir dəfə deyib ki, ay arvad, çəkil otur yerində. O da çəkilib dinməzcə oturub. Bir dəfə ki, işimizə qarışmağa duxu çatmır. Dedim, maşallah, Züleyxa xalanın nəticəsi. Haladlır sənə. Qətiyyən nənənə oxşama. Yaxşı eləyirsən, çıx "Tiktok"a, bax belə danış, hərbə-zorbanı gəl. Nə istəyirsən, necə istəyirsən, elə də elə, qoy bütün qızlar səndən gəlin-qayınana münasibətlərini öyrənsinlər. Maşallah sənə.

Hə, yüzlərlə nənələr-babalar var ki, "Tiktok"da nəvələri müasirlik saçırlar ətrafa. Amma hamısından danışa bilmədim, qoy məndən küsməsinlər. Birinci rəhmətə gedənlərin övlad, nəvə-nəticələrindən yazdım ki, onlar artıq yoxdur həyatda. Bu dünyada olsaydılar, onsuz da "Tiktok"dakı əzizlərini görüb rəhmətlik olacaqdılar.

Yaxşı ki, rəhmətə getmisiniz, ölülər. Allah sizə rəhmət eləsin, yaxşı ki, bu günləri görmədiniz. Yoxsa heç vaxt öz əcəlinizlə ölməzdiniz.

***Mətanət Məmmədova***

# Ermənistan delimitasiya üzrə layihəni təsdiqlədi



Ermənistan parlamentinin komissiyası Azərbaycanla sərhədlərin delimitasiyası üzrə komissiyaların birgə fəaliyyəti haqqında reqlament layihəsini təsdiqləyib. SİA bu barədə Ermənistan KİV-ə istinadən xəbər verir. Sənədin lehinə 5, əleyhinə isə 3 deputat səs verib.

Qeyd edək ki, Azərbaycan və Ermənistan sözügedən əsasnaməni avqustun 30-da imzalayıb. Reqlament delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Bundan əlavə, sentyabrın 26-da Ermənistanın Konstitusiya Məhkəməsi Azərbaycanla sərhədlərin delmitasiyası üzrə işçi komissiyanın reqlamentinin qanunauyğun olduğuna dair qərar qəbul edib.

# Elektromobillər niyə sərfəli deyil?

*Elektrik avtomobillərinin dünyada dəb halına düşməsindən sonra milyonlarla insan bu maşınlardan almağa başladı. İlk vaxtlar hər şey cazibədar görünürdü- qənaətcil, ekoloji təmiz, müasir elektronikalı maşın. Həmişə, elektromobillərin ancaq müsbət tərəflərindən danışırlar. Lakin zaman keçdikcə problemlər ortaya çıxmağa başladı. Belaurs saytlarının birində (abw.by) bir elektromobil sahibinin öz real təcrübəsi haqda təəssüratları əsasında məqalə dərc olunub. Məqalənin maraqlı olduğunu nəzərə alıb oxucularımıza təqdim edirik.*



## "Bu, mənim ilk və son elektrikli avtomobilimdir!"

Minsk sakini İqor daxili yanma mühərriki olan avtomobildən elektrikli maşına keçib və onunla demək olar ki, 30.000 kilometr yol qət edib. O, buna peşman olduğunu deyir. O qeyd edir ki, elektromobil satıcıları adətən avtomobillərinin üstünlükləri və müsbət tərəfləri haqda danışırlar, amma mənfi tərəfləri daha çoxdur. Bəs problem nədədir?

İqor Çində istehsal olunan 2022-ci il buraxılışlı "Honda e:NP1" markalı avtomobili hər gün və ən azı 200 kilometr sürür, onun iş qrafiki sıxdır. Bu elektrikli "Honda" bu qədər pisdir, yoxsa İqor avtomobildən istifadənin fərqli modelini sadəcə qəbul edə bilmir? İqor fikirlərini belə ifadə edir:

## "Həyat yoldaşım maşına baxıb bunun oyuncaq olduğunu söylədi"

- Uzun müddətdir maşın sürürəm. Bu "Honda"dan əvvəl daxili yanma mühərrikləri olan bir çox avtomobilim olub və onların arasında sonuncusu dizel "Hyundai Santa Fe" idi- 2020-ci il buraxılışlı. Ondan əvvəl isə "Honda CR-V Touring" 2022-ci il istehsalı. Sonra elektromobilin nə olduğunu, onun üstünlükləri və çatışmazlıqlarının nə olduğunu sınamağa qərar verdim. CR-V sürdüyüm və markaya öyrəşdiyim üçün yenə "Honda" aldım- bu dəfə elektrik modeli. Bu marka mənə balanslı və etibarlı görünürdü, o cümlədən qiymət və keyfiyyət nisbəti baxımından. Buna görə də yenə də eyni marka-



dan "Honda" götürməyə qərar verdim. Mən fikirləşdim ki, həyat yoldaşım da bəyənəcək və o da bu maşını sürəcək. Amma arvadım maşına baxıb dedi: "Bu uşaq oyuncağıdır".

Bu "Honda" mənə 2023-cü ilin sonunda gəldi- yeni, yürüşsüz, sellofan örtükdə. Hələ də hamısını çıxara bilməmişəm. Bir daşıma şirkəti vasitəsilə və adekvat qiymətə sifariş verdim. Çindən Belarusa bir ay yarımda gətirdilər.

Əvvəlki bütün avtomobillərim maksimum komplektasiyada idi, ona görə də onlardan sonra bu "Honda" sürpriz olmadı. Əvvəlcə məni sevindirən yeganə şey o idi ki, elektrik maşından istifadə etdiyim üçün hər həftə yanacağa 150-200 rubl xərcləməli deyiləm- iş də daxil olmaqla ayda 5-7 min kilometr yol qət edirəm. İndi odometr təxminən 30.000 kilometr göstərir, baxmayaraq ki, mən avtomobildən yalnız bu ilin yazında aktiv istifadə etməyə başlamışam.

Belarusa gəldikdən sonra sürət qutusundakı yağı yoxlamaq qərarına gəldik və oradan cəmi 300 mililitr yağ çıxdı! Görünür, sadəcə maşının işlədiyini göstərmək üçün. Buna görə də, servisdə yağın səviyyəsini lazımi həddə qaldırdılar və istifadə etdiyim müddət ərzində avtomobillə etdiyim yeganə iş budur.

Bu avtomobili qısa müddətdə hesab etsək, o, ümumiyyətlə xərcsizdir- onu ya qarajda, ya bağda, ya da kənd evində doldururam. Əslində, elektrik avtomobilinizi daim doldurmazdan əvvəl, ayda bir dəfə elektrik enerjisi üçün əvvəlkindən 50-70 rubl çox ödəyirsiniz.

Amma digər tərəfdən ümumi sərfəlilik məsələsini nəzərə alsaq, yekunda elektrik avtomobili daxili yanma mühərrikli avtomobildən daha çox zərərə salır. Nəyə görə? "Santa Fe"-ni 35.000 dollara almışamsa, eyni qiymətə satmışam. Mən bu "Honda eNP1"-i təxminən 30.000 dollara almışam və indi ən yaxşı halda 18-19 min dollara satmaq olar, yəni azı 10.000 dollar itirmişəm.



## "Enerji yükləmə prosesi vaxtımı çox itirir"

Öz evinizdə yaşayanda və ya qarajınız olduqda "elektrik maşın"a sahib olmaq yaxşıdır. Əgər belə deyilsə, elektrik avtomobili tamamilə yararsız bir şeyə çevrilir. O, insanı azadlıqdan məhrum edir və hər şeyi məhdudlaşdırır: marşrutu və enerji imkanını hesablamaq lazımdır. Şəhər stansiyalarında enerji doldurmağa vaxtım yoxdur və onların sayı çox azdır.

Tətbiqdə xəritəyə baxanda pulsuz enerjidoldurma məntəqələri görürsünüz. Siz gələndə isə o məşğul olur. Başqa bir enerji yükləmə mərkəzinə gedirsiniz- eyni vəziyyətdir. Bəli, rezervasiya funksiyası var, lakin bu yaxınlaradək o, hələ mövcud deyildi. Üstəlik, getdikcə enerji yükləmə prosesi mənim üçün əverişsiz hala gəldi, o mənim vaxtıma qənaət etmir.

Söhbət təkcə iş səfərlərindən getmir. Məsələn, istirahət etmək üçün Qrodnoya getmək istəyirsinizsə, əvvəlcə enerjidoldurma məntəqələrinə baxacaqsınız ki, harda boş yer var. Minskdən gəldikdən sonra enerji bitir, Qrodno ətrafında yenidən stansiya axtarmaq lazımdır ki, heç bir problem olmadan geri qayıtmaq üçün kifayət qədər enerji ehtiyatınız olsun.

Düşünürəm ki, elektrik maşınlarının pərəstişkarı olanlar səhvlərini etiraf etmək istəmirlər. Amma mən səhv etdiyimi etiraf edirəm. Elektriklə işləyən avtomobildən heç bir rahatlıq görmədim. Maksimum konfiqurasiyada belə, elektrik avtomobili daxili yanma mühərriki olan oxşar avtomobildən daha az komfortludur– halbuki mən əvvəlki avtomobillərimdə komfort versiyalara öyrəşmişəm. Yenə deyirəm, mobillikdə də problemlər var. Yalnız bir nəzərə çarpan üstünlük var- bu ekologiya və sıfır emissiyadır. Başımı yelləyirəm və dünya üçün nə qədər böyük iş gördüyüm üçün özümə təsəlli verirəm.



## "Magistral yolda rahat sürət 90-95 km/saatdır"

GB/T adapterinin (sürətli enerji yükləmə-red.) qiyməti 1100–1200 dollardır, hətta daha bahadır. Buna görə də, müntəzəm olaraq sabit şəbəkədən 220 Vt-dan enerji yükləmə ilə kifayətlənirəm. Həyatımı məhdudlaşdırmalı və dəyişdirməli oldum: işdən evə, bağa və ya valideynlərimin evinə qayıdıram və bununla kifayətlənirəm. Bütün istifadə müddəti ərzində bunu necə edəcəyimi unutmamaq üçün enerji yükləmə stansiyalarının "sütunlarında" cəmi 3 dəfə dayandım. Qalan bütün hallarda evdə doldururdum.

Məsələ odur ki, ev şəbəkəsində avtomobil 2,1-2,3 kVt / saat enerji yığır- bu olduqca yavaşdır. Bütün gecə boyu qarajda yükməməyə qoya bilsəniz, bu yaxşıdır. Amma evə gəlib bir az sonra da başqa yerı getmək lazımdırsa, o zaman elektrik avtomobili bu cür tapşırıqlar üçün sadəcə uyğun deyil. Ailədə yalnız bir avtomobil varsa, heç bir halda bu elektromobil olmamalıdır. Əgər uzunmüddətli işgüzar səfərim olsa, həyat yoldaşımın daxili yanma mühərrikli avtomobili ilə gedirəm.

Elan edilmiş diapazon 510 kilometrdir və şəhər dövrəsində bundan xeyli az məsafə qət edə bilir. Magistral yolda isə 420–460 kilometr, sürətdən çox şey asılıdır. Onun üçün ən rahat sürət 90-95 km/saatdır. Sürətli sürsəniz, ehtiyat 390-400 km-ə düşür.

Akkumulyatorun tutumu– 58,8 kVt/saat. Əlbəttə ki, Malankada elektrik avtomobilini sürətli doldurma portu var. Amma mənim üçün əlverişsizdir. Üstəlik, mən ümumiyyətlə batareyanı sıfıra boşaltmıram, ən azı 50-60% enerji səviyyəsi ilə qayıdıram və səhərə qədər 90-100-ə qədər doldururam. Mən 400 dollar xərcləyib ev stansiyası ala bilərdim, o, təxminən 7,5 kVt istehsal edərdi, amma istəmirəm.

## "Baqaj kiçikdir, əlavə sərnişin sürüş məsafəsini azaldır"

Bu "Honda"nın müsbət cəhətləri varmı? Burada çox yaxşı düşünülmüş "Honda" elektronikası var: adaptiv kruiz-kontrol, zolaq saxlama. Mən bu sistemlərə o qədər öyrəşmişəm ki, onlarsız necə idarə edəcəyimi bilmirəm: əllərinizi sükandan çəkə, özünüzə qəhvə tökə və ya nəsə yaza bilərsiniz. Bu, çox gözəldir! "Musiqi" də yaxşı səslənir. Salon eksteryeri yüksək səviyyədədirtəəccüblüdür! Normal dəri.

Dinamika sadəcə çılğındır! Əgər siz onu idman rejiminə keçirsəniz, o zaman yol ayrıcından risksiz keçmək mümkün deyil, təkərlər az qala asfalta toxunmur. Daxili yanma mühərriki olan "Honda"-dan daha sakit sürüşdürmü? Mən bunu deməzdim. Səs izolyasiyası təxminən eynidir. Ancaq ön asma olduqca zəifdir, qeyri-bərabər səthlərdə qırı-



lır.

Sürücü oturacağı narahatdır və bel dayağı yoxdur. Xüsusilə uzun məsafələrə səyahət edəndə və 2-3 saat sükan arxasında olanda darıxırsan. Maşın məncə bir nəfər üçündür. İki və ya üç nəfərlə səyahət etmək enerji istehlakına nəzərəçarpacaq dərəcədə təsir göstərir. Yeri gəlmişkən, bu, elan edilənlə üst-üstə düşür, 100 kilometrə 13,8 kVt/saat.

Dil bilməmək problem yoxdur, məlumat menyudakı ikonalarla təkrarlanır. Ancaq görünür ki, bir növ Çin kartı var və saat daim saat qurşağımızı itirir və "doğma" saat rejiminə qayıdır. Maşında radio yoxdur və siz onu daim telefonunuzdan qoşub işə salmalısınız. Bildiyimə görə, bu problem təkcə bu "Honda"da deyil, daxili bazar üçün nəzərdə tutulan digər Çin avtomobillərində də olur.

Baqaj çox kiçikdir, yalnız kiçik əşyalar daşımaq olar. Əgər siz sadəcə olaraq hər şeyi əvvəlki avtomobillərə uyğun olaraq götürmüsünüzsə, onda siz artıq onları necə və hara yerləşdirməyinizi düşünməlisiniz. Arxa oturacaq cərgəsinin aşağı qatlanması yaxşıdır.

## "Az işlənmiş" elektromobili satmaq demək olar ki, mümkün deyil"

Elektromobil yay avtomobilidir və ondan artıq deyil. Qışda güc ehtiyatı 300 kilometrə, şiddətli şaxtalarda isə hətta 250 kilometrə düşür- bu xoş deyil. Dayanacaqda dayanırsınız, kimsə iş məsələlərini müzakirə etmək üçün maşına minir və siz maşını işə salıbsalmamağı, isitməni yandırıb-yandırmamağı düşünürsünüz. Buna görə də qışa qədər başqa bir maşın götürmək və bu avtomobili gələn yaya qədər işlətməyib saxlamaq planı var. Təbii ki, kimsə belə bir avtomobildən alış-veriş səfərlərində və ya uşağını məktəbə aparmaq üçün istifadə edir. Bu halda bir yükləmə ilə bir həftə davam edəcək! Amma mənim üçün belə deyil. İndi bütün pulumla maşından istifadə etməkdən başqa çarəm yoxdur. Az işlənmiş elektormobili satmaq demək olar ki, mümkün deyil. Buna görə də, lazım gələrsə, ayda 6-7, hətta 10 min kilometr sürəcəm başqa yolum yoxdur. Amma yenə də etiraf edirəm ki, elektromobil alanda böyük səhv etmişəm.

Daxili yanma mühərrikli avtomobildən elektromobilə keçmisinizmi və razısınızmı? Ümumiyyətlə, sizcə hansı daha sərfəlidir? Fikrinizi bizə yazın.

***Müəllif - Vadim Zenkeviç***
***Tərcümə - Elçin Bayramlı***

# Fransanın demokratiyadan və insan haqlarından danışmağa mənəvi haqqı yoxdur

***Azad mətbuatın hüquqi müdafiəsinin uğurla reallaşması sayəsində jurnalist araşdırmaları, faktların dərc edilməsi üçün ölkəmizdə sərbəst imkanlar yaradılması danılmaz həqiqətdir. Prezident İlham Əliyev söz və fikir azadlığına, mətbuatın inkişafına, bu sahədə yaranan problemlərin həllinə daim xüsusi diqqət, qayğı göstərir.***



**Bu Makron hakimiyyəti tərəfindən xalqların köləliyə, istismara məruz qalması insan hüquq və azadlıqlarının inkar olunmasıdır. Bu kontekstdə neokolonializmin bütün təzahürlərinin tez bir zamanda aradan qaldırılması vacibdir**




Məhz bu diqqət və qayğının nəticəsidir ki, hazırda Azərbaycanda yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkətləri, sürətlə inkişaf edən internet resursları fəaliyyət göstərir, onlar vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Bütün bunları görməzdən gələn Fransa və onun əlaltısı olan Qərbin Beynəlxalq təşkilatları mütəmadi olaraq Azərbaycanda guya fikir və mətbuat azadlığının hədəf alındığı, əsassız həbslər həyata keçirildiyi barədə bəyanatlarla çıxış edirlər.

Ölkələrində olan rəzillikləri görməzdən gələn, özlərini ultra demokrat sayan Fransanın da isə söz və mətbuat azadlığından danışmağa mənəvi haqqı qətiyyən yoxdur. Bu ölkədə əsassız həbslərin həyata keçirilməsi adi hala çevrilib. Bir neçə gün əvvəl Fransa hökuməti növbəti rüsvayçılığa imza atıb. Belə ki, Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Seba Parisdə həbs edilib. Özünü dünyada "demokratiya etalonu" elan edən Fransa insan haqlarının fəal müdafiəçisini Bakıda neokolonializmə həsr olunan beynəlxalq konfransda Fransanın ünvanına tənqidlər səsləndirdiyi üçün restoranda həmkarı ilə nahar edərkən həbs edib.

O, Afrikanın müstəqilliyi və suverenliyi uğrunda hərəkatın simvolik liderlərindən biri kimi tanınır və neokolonializmə qarşı fəal mübarizə aparır. Yəni, neokolonializmin əsas tənqidçilərindən biridir. 2024-cü ildə Fransa hakimiyyətini açıq şəkildə tənqid etdiyi və onun dənizaşırı ərazilərinin müstəqilliyi uğrunda hərəkatları dəstəklədiyi üçün vətəndaşlıqdan məhrum edilib. Fransa hakimiyyəti K.Sebanı mövqeyindən geri çəkilməyə məcbur etmək üçün dəfələrlə həbs edib. Onun yenidən saxlanılaraq həbs olunması ifadə və siyasi fəaliyyət azadlığının pozulması olmaqla yanaşı, Fransanın Afrikada mövcudluğunu və təsirini qeyri-legitim yollarla davam etdirməyə çalışdığını bir daha sübut edir. Bu cür hərəkətlər Fransa dövlətinin hələ də müstəmləkə dövrü təfəkküründən çıxmadığını və öz hegemonluğunu qorumağa çalışdığını göstərir.

Birmənalı şəkildə deyə bilərik ki, Kemi Seba siyasi məhbusdur və onun saxlanılması birbaşa siyasi fəaliyyəti ilə əlaqədardır.

K.Sebanın Bakıda səsləndirdiyi ciddi ittihamlardan biri də fransız kəşfiyyatının Afrikadakı müstəmləkə siyasətinə qarşı çıxanlara təzyiqi artırmasını elan etməsidir. O qeyd edib ki, Bakı Təşəbbüs Qrupu Fransanın Afrikada və digər regionlarda müstəmləkə siyasətinə qarşı mübarizədə çox işlər görür: "Biz bura ona görə gəlmişik ki, Qərbin zülmündən bezmişik. Biz burada, Azərbaycandayıq, çünki dəstək axtarırıq və inanıram ki, Bakı müəyyən müddət və ya uzunmüddətli əsasda bizi dəstəkləyəcək. Biz burada səmimi dostlar axtarırıq və Bakı Təşəbbüs Qrupunda səmimi dost görürük". Bununla da K.Seba təkcə Fransanı deyil, bütövlükdə Avropanı müstəmləkə sistemini bu gün də nümayiş etdirməkdə ittiham edib. Qeyd edib ki, 25 ildir imperializmlə mübarizə aparır və bu müddət ərzində hər zaman qaradərililərə qarşı ayrı-seçkiliyin şahidi olub. Ölkələrində zəngin mineral ehtiyatların olmasına baxmayaraq, Afrika əhalisi onlardan istifadə edə bilmir, Fransa oliqarxiyası isə bu sərvətlərdən bəhrələnir. Açıq sözlü olduğunu qeyd edən K.Seba bildirib ki, Fransa rejimi tərəfindən iki dəfə həbs edilmişəm. İki dəfə Fransada, iki dəfə isə Afrikada saxlanılmışam.

Bakı Təşəbbüs Qrupu Afrika xalqlarının hüquqları uğrunda mübarizə aparan tanınmış fəal Kemi Sebanın Fransa hüquq-mühafizə orqanları tərəfindən qeyri-qanuni saxlanılmasını qətiyyətlə pisləyib. "Bu qanunsuz addım yalnız şəxsi azadlıq və insan hüquqlarına qarşı kobud bir pozuntu deyil, həm də Afrika xalqlarının neokolonializmə qarşı mübarizəsinə və suverenlik hüququna yönəlmiş bir təzyiq kimi qiymətləndirilməlidir",- bəyanatda vurğulanıb.

Həmçinin Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti idarəsinin rəisi Ayxan Hacızadə də fəalın Fransa hüquq mühafizə orqanları tərəfindən saxlanılmasına münasibət bildirib. Onun sözlərinə görə, P.Durov və K.Seba barəsində həbs qətimkan tədbiri seçilməsi Fransada fundamental insan haqlarının pozuntusudur: "Fransa tərəfi aidiyyəti istintaqı tam şəffaf və ədalətli şəkildə aparmalı və beynəlxalq ictimaiyyət müvafiq olaraq məlumatlandırılmalıdır. Hesab edirik ki, Fransada siyasi motivli bu kimi həbslər Avropa İttifaqı, Avropa Şurası və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının aidiyyəti qurumları tərəfindən araşdırılmalı, müvafiq qiymət verilməlidir".

Bu ölkədə insan hüquqlarının tapdanması, etnik ayrı-seçkilik zəminində xoşagəlməz hadisələrin baş verməsi də adi hala çevrilib. Nanter şəhərində polis tərəfindən Əlcəzair əsilli 17 yaşlı gəncin qətlə yetirilməsi Fransa hakimiyyətinin əsl simasını bir daha dünyaya göstərmədimi? Əhalinin haqlı narazılığına polisin sərt müdaxiləsi, insanlara dəyənəklərlə xəsarət yetirilməsi, həbs olunmaları, həmçinin bu ölkədə sərbəst toplaşmaq hüququnun məhdudlaşdırılması isə Fransada artıq pik həddinə çatıb. Belə olan halda rəsmi Paris görəsən hansı üzlə Azərbaycana insan haqlarından dərs keçməyə cəhd göstərir?

Bu ölkədə əsassız həbslərin həyata keçirilməsi mütəmadi hal alıb. Elə bu yaxınlarda Korsikanın müstəqillik hərəkatı fəalları Fransa dövləti tərəfindən hədəfə alınıb və polis onların evlərinin qapısını partladaraq dağıdıb. Hətta polislər uşağının gözü qarşısında atasını yerə yıxaraq zorakılıq aktı törədiblər, evini alt-üst ediblər.

Bu gün islamofobiya dünya miqyasında nüfuzunu itirən Fransada daha çox nəzərə çarpır. Müsəlmanların hüquqlarının kobud şəkildə pozulması artıq Emmanuel Makron hakimiyyəti üçün adi hala çevrilib. Təkcə bir faktı xatırladaq ki, 2020-ci ildən indiyədək Fransada 89 məscid, 650-yə yaxın ibadət yeri bağlanıb. Üstəlik, bu ölkədə elə qanunlar qəbul edilib ki, bütün insanların inancını tanıyır, amma müsəlmanlarınkını yox. Bu yaxınlarda Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı törədilən vandalizm də islamofobiyanın ən bariz nümunəsidir. Ölkədə bu kimi addımlar günbəgün şiddətlənir. Prezident İlham Əliyevin Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubunda da bu məsələyə toxunub: "Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər, müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir". Dövlətimizin başçısı vurğulayıb ki, bu ölkə "dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir.

Dünyanın bir çox aparıcı ölkələri bu problemin aradan qaldırılması istiqamətində mühüm təşəbbüslərlə çıxış edirlər. Azərbaycan da neokolonializmlə fəal mübarizəyə qoşulan dövlətlər sırasındadır. Rəsmi Bakı sözügedən məsələnin öz həllini tapması üçün bir sıra uğurlara imza atıb. Hər şeydən öncə dövlətimizin başçısı iştirak etdiyi istər regional, istərsə də qlobal tədbirlərdə bu çirkin siyasəti daim pisləyib. Xüsusi qeyd etmək lazımdır ki, müasir dövrdə Fransanın neokolonializm siyasəti fonunda Afrika qitəsində insanlara qarşı kölə münasibətinin davam etməsi, onların sərvətlərinin talan edilməsinə qarşı mübarizənin önündə Qoşulmama Hərəkatı xüsusilə seçilib. Məhz ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə prioritetlərdən biri tarixi Bandunq prinsiplərinə əməl olunması idi. Xatırladaq ki, xalqların köləliyə, istismara məruz qalması insan hüquq və azadlıqlarının inkar olunmasıdır. Bu, BMT Nizamnaməsinə ziddir, həmçinin beynəlxalq sülh və əməkdaşlığın təşviqinə maneə törədir. Bu kontekstdə neokolonializmin bütün təzahürlərinin tez bir zamanda aradan qaldırılması vacibdir.

***Şəmsiyyə Əliqızı***

# "41", yoxsa "5"?



## *Siyasi savaş "Gürcü Arzusu" ilə "kollektiv Milli Hərəkat" arasında gedəcək*



***Oktyabrın 26-da Gürcüstanda keçiriləcək parlament seçkilərində əsas mübarizə iqtidar partiyası "Gürcü arzusu" ilə "radikal müxalifət" sayılan "kollektiv Milli Hərəkat" arasında davam edəcəyi şəksizdir. Mərkəzi Seçki Komissiyası tərəfindən partiya və hərəkatların nömrələnməsi seçicilərin işini asanlaşdırsa da mübarizə metodu dəyişməyib.***

Hakim "Gürcü arzusu"nun sıra nömrəsi 41, müxalifətin "Vahid Milli Hərəkat"ın sıra nömrəsi isə 5-dir. Proporsional sistem üzrə keçiriləcək seçkidə 48 siyasi qüvvə iştirak edəcək. Müxalifətin inqilab cəhdi barədə fikirlər dolaşır. "Gürcü arzusu"nun hakimiyyətdən gedəcəyi təqdirdə Rusiya ilə müharibənin baş verəcəyi barədə hakim partiyanın iddiası özünü doğrultmaqdadır. Gürcüstan müxalifəti Avropaya inteqrasiya, demokratiya kimi xülyaların dalınca qaçdığından Qərbin əsas planlarını görməzdən gəlir. Əsas hədəf Rusiyaya qarşı ikinci cəbhənin açılmasıdır. Seçkilər və prosesdən sonra hakimiyyətə gəlmək ehtimalı olan "Vahid Milli Hərəkat"ı bu şansı Qərbə vermiş olacaq. Təsadüfi deyil ki, Gürcüstanda keçiriləcək parlament seçkilərini nəinki Gürcüstanın, o cümlədən bütövlükdə Qafqazın taleyinin həll olunacağı proses adlandırırlar.

Gürcüstan müxalifəti "Gürcüstan Avropanı seçir" adlanan əsas seçki mitinqini Tbilisinin mərkəzində keçirib. Tədbirdə respublikanın prezidenti Salome Zurabişvili ilə yanaşı, Gürcüstanın məşhur musiqiçiləri də iştirak ediblər. Maraqlıdır ki, yerli medianın yazılarına diqqət yetirməsəniz, ümumilikdə seçki kampaniyası kifayət qədər ləng gedir. Hakim "Gürcü arzusu" bunun davam etməsini istəyir və onların opponentləri oktyabrın 26-dan sonra insanları etiraz səsvermısinə deyil, hakimiyyət uğrunda mübarizəyə hazırlamağa ümid edirlər.

Müxalifət ümumilikdə, beş istiqamətdən Gürcüstan paytaxtının mərkəzinə doğru irəliləyib və bununla da şəhər həyatını qismən də olsa iflic edə bilib. Yürüş iştirakçıları mitinq başlamazdan əvvəl əsas tezislərini açıqlayıblar: Gürcüstan Rusiyanın "əyaləti" olmamalıdır və ölkədəki bütün pisliklər "Gürcü arzusu"ndandır. İnsanlar oktyabrın 26-nın Bidzina İvanişvilinin və onun siyasi rejiminin hakimiyyətinin sonunun başlanğıcı olduğuna bir-birini inandıraraq, Gürcüstanın və Avropa Birliyinin nəhəng bayraqlarını açıblar. Üstəlik, hər şey ruhlandırıcı vətənpərvərlik mahnılarının müşayiəti ilə baş verib. Batumi, Qori və ölkənin digər yaşayış məntəqələrində də müxalifətin mitinqləri keçirilib.

### Qərb səfirləri müxalifətlə bir cərgədə

"Biz təkpartiyalı hakimiyyətdən imtina edəcəyik, qütbləşmə ilə vidalaşacağıq, qarşılıqlı nifrətlə vidalaşacağıq, çünki indi dayandığımız və alternativsiz olan yol inkişaf, sülh, təhsil yoludur. Sizin qorxacağınız bir şey yoxdur, çünki siz doğru yoldasınız, biz də düz yoldayıq", bunu ölkənin prezidenti, müxalifətin lideri Salome Zurabişvili əminliklə deyib. Öz növbəsində, Aİ-nin Gürcüstandakı səfiri Pavel Qerçinski mitinq ərəfəsində bildirib ki, gürcülər özləri və uşaqları üçün necə gələcək istədiklərinə qərar verməlidirlər. "Hər birinizin Gürcüstanın Aİ-yə üzv olmasını istəyib-istəmədiyinizə qərar vermək imkanı olacaq... Biz öz tərəfimizdən sizi salamlamağa hazırıq. Biz Gürcüstanın Aİ-yə üzv olmasına hazırıq, lakin bu, hamımıza aid olan qayda və prinsiplərə əsaslanmalıdır... və bu qaydalar çox aydındır: azadlıq, demokratiya, qanunun aliliyi, insan haqları. Bu qaydalar Aİ müqavilələrində nəzərdə tutulub və müzakirə mövzusu deyil", - səfir qeyd edib.

Onun sözlərinə görə, "rəsmi Tbilisi xarici agentlər və cinsi azlıqların hüquqlarının pozulması ilə bağlı qanunları ləğv etməsə, ölkə Aİ-yə daxil ola bilməyəcək. Bundan əlavə, qarşıdan gələn seçkilər ən yüksək Avropa standartlarına cavab verməlidir, əks halda gürcülər iqtisadi yardımın dondurulması şəklində xoşagəlməz nəticələrlə üzləşə bilər". Yeni Brüssel indiki hakim partiyanın mümkün qələbəsini mikroskop altına qoymağa hazırlaşır.

ABŞ-ın Gürcüstandakı səfiri Kennet Yalovitz mitinqdə bəyan edib ki, avtoritarizm və demokratiya, ya da Rusiyanın tərəfinə keçmək arasında seçim qarşısında qaldıqda, gürcü xalqı düzgün seçim edəcək". Diplomatın sözlərinə görə, "Gürcü arzusu" tam fəaliyyət azadlığı əldə etmək üçün təkpartiyalı sistem qurmaq istəyir. Tbilisi də Rusiya ilə dostluq etməyə çalışacaq, lakin bu, 2008-ci il müharibəsinin təkrarı ilə yekunlaşacaq.

Bu arada "Gürcü Arzusu"nun yaradıcısı Bidzina İvanişvili oktyabrın 19-da seçki mitinqində çıxışı zamanı bildirib ki, Avropaya inteqrasiyanı pozmaqda günahkar onun təşkilatı deyil, onun əleyhdarlarıdır. Cəmiyyəti parçalamaq, iğtişaşlar və dövlət çevrilişləri təşkil etmək, dövlətə qarşı təxribat törətmək üçün davamlı cəhdlər etməklə onlar Gürcüstana, o cümlədən Avropaya inteqrasiya nöqteyi-nəzərindən xeyli ziyan vurublar. Eyni zamanda o, müxalifəti "köksüz cinayətkarların son sığınacağı" adlandırıb. Sadəcə "Gürcü arzusu"nun konstitusiya çoxluğunu əldə etməsi lazımdır. "Biz bu sığınacağı ölkənin ən mühüm hüquqi sənədi Konstitusiya səviyyəsində qadağan edəcəyik və Vahid Milli Hərəkatı və onun peyk partiyalarını və ya varislərini öz xalqına qarşı törədilən cinayətlər, o cümlədən hərbi cinayətlərə görə qanunun bütün həddi ilə məsuliyyətə cəlb edəcəyik", - İvanişvili bildirib. "Gürcü Arzusu"nun yaradıcısının fikrincə, bundan sonra Avropaya gedən yolda bütün maneələr aradan qalxacaq və 2030-cu ildə Tbilisi Aİ-yə daxil olacaq.



### Gürcüstan: Sorğular nə deyir?

Sorğulara görə, gürcülər "ləyaqət kranı" deyil, əllərindəki "pul quşu"nu seçəcəklər", – Espresso yazır. Parlament seçkilərinin qalibi, görünür, həmvətənlərinə iki tezis təklif edən "Gürcü arzusu" olacaq – sülh və iqtisadi inkişaf. Bu müxalifətin xoşuna gəlmir, ona görə də daxili çəkişməyə başlayıb. Məhz Gürcüstanda Rusiya ilə patoloji müharibə qorxusu texnologiyası uğurla həyata keçirilir. Söhbət dağıdılmış Ukrayna şəhərlərini əks etdirən reklam lövhələrindən getmir. Məsələ burasındadır ki, gürcülərin özləri, xüsusən də kənarda, göydə ləyaqət piroqu yox, əllərində maliyyə "quşu" seçirlər.

Georgian Opinion Research Business International təşkilatının sorğusu göstərir ki, "Gürcü arzusu" (59,3%) seçkilərdə qalib gələcək, ölkənin istiqamətini dəyişəcək və Avropa inteqrasiyasını gündəmdən kənara çıxaracaq. Əsas müxalifət qüvvəsi olan Tinatin Bokuçavanın "Birlik – Milli Hərəkat" bloku isə bu sorğularda cəmi 13 faiz səs toplayıb. Müxalif "Formula TV" kanalının sorğuları göstərir ki, "Gürcü arzusu"nun reytinqi cəmi 32% civarındadır. Gürcüstanda seçkilərlə bağlı real sosiologiya tapmaq çətindir, çünki ondan adətən seçicilərin hədəflənməsi texnologiyası kimi istifadə olunur.

Digər partiyalar - 5-8% və ya daha az (seçkilərdə 5% baryer müəyyən edilir) səs toplayıb. Qaxariyanın "Gürcüstan naminə" müxalifət qüvvəsi və bankir Xazaradzenin "Güclü Gürcüstan" alyansının şansları da var. Prezident Zurabişvili bu iki partiya arasında müəyyən birləşdirici zəncirə çevrilməyə çalışır. Dəyişiklik Koalisiyası da daxil onların hamısı özlərini ana müxalifət partiyası olan "Vahid Milli Hərəkat Partiyası"na alternativ kimi göstərməyə çalışırlar. Oliqarx İvanişvilinin "Gürcü arzusu" bu seçkilərdə iki tezis irəli sürür - sülh və iqtisadi artım. Üstəlik, oliqarx partiyanın fəxri başqanı kimi ictimai siyasətə qayıtdığını elan etdiyi üçün seçki genişlənməsindən şəxsən yararlanmağa çalışır.

2012-ci ildən hakimiyyətdə olan İvanişvili faktiki olaraq effektiv struktur qurmağı bacarıb və indi partiya maraqlarına uyğun olaraq geosiyasi maraqlara yönəlib. Və onu aşağı salmaq mümkün olmayacaq. Prinsipcə, İvanişvili Macarıstanda Orbanın rejiminə çox oxşar bir rejim qurub. Müxalifət medianın təzyiqi və şəxsiyyətlərarası çəkişmələr səbəbindən tamamilə balanssızdır, parçalanıb və marginallaşıb.

**V.VƏLİYEV**

# Gənclərin əksəriyyətinin evlənməməsinin səbəbləri BƏLLİ OLDU





***Məlumdur ki, Türkiyədə yeni qanuna görə 30 yaşından sonra subay qalan şəxslər dövlətə vergi ödəyəcək. Bəs, bizdə də belə bir qanuna ehtiyac varmı? SİA mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlunun fikirlərini öyrənib. Əhməd Qəşəmoğlu bildirib ki, bizdə hələlik belə bir qanun qəbul etməyə ehtiyac yoxdur: "Amma bundan əvvəl xeyli sahədə qanun qəbul etməyə böyük ehtiyac var. Türkiyə niyə bu qanunu qəbul edibdir? Ölkədə əhali artımı tənzimləmək, əhalinin sayını artırmaq üçün.***



## AYDINLIQ GƏTİRİLDİ

Amma bizdə bundan vacib işlər var. Bizim gənclərimizin bir çoxu ona görə evlənmir ki, ölkədəki gənclərin əksəriyyətinin işi yoxdur, lazımi bir gəliri yoxdur, mənzil şəraiti imkan vermir. Eyni zamanda paralel olaraq ailə institutu ilə ciddi şəkildə məşğul olunmur, gənclərimizə ailə dəyərləri lazımi şəkildə təbliğ olunmur, ailə barədə aydın təsəvvürlər yoxdur. Ona görə də biz bu sahədə bir məqsədə, bir nəticəyə nail olmaq istəyiriksə, çalışmalıyıq orta məktəblərdən başlamış gənclərdə ailə dəyərləri ilə bağlı böyük maarifləndirmə işi aparaq.

İkinci tərəfdən çalışmalıyıq ki, hər bir gəncin işsizlik problemini ortadan qaldıraq. Bunun üçün ölkədə çox böyük potensial var. 1994-cü ildən də mən bu potensialı üzə çıxaran təkliflər paketi təqdim etmişəm. İstənilən dövlət qurumuna yenə də təqdim edə bilərəm. Azərbaycanda işsizliyi minimuma endirmək üçün çox böyük potensial var. Amma təəssüf ki bundan istifadə olunmur. İşsizliyi azaldaq, sonra mənzil şəraiti ilə bağlı gənclərə kömək edək.

Mən uzun illərdir təbliğ edirəm ki, Azərbaycanda 3 uşaqlı ailə modelini keçmək lazımdır. Bunun üçün qanunvericilik bazası olmalıdır və bu 3 uşaqda doğmaq, onları tərbiyə etmək təkcə ailənin, o gənclərin işi deyil. Bu həm də dövlətin bir vəzifəsidir. Çünki o uşaqlar təkcə doğulduğu ailənin deyil, həm də dövlətindir. Bu uşaqlar gələcək ölkənin müdafiə qüdrətidir, bu ölkənin istehsal gücünün artırılmasına kömək edir. Bu sahədə də işlərimizə lazımi səviyyədə diqqət verilmir. Ona görə biz yeni xeyli başqa qanunlar ortaya qoymalıyıq, onları qəbul etməliyik. Ondan sonra əgər görsək ki, bütün şərait olandan sonra gənclər elə yenə də evlənmir, onda təbii ki onlara yenə də bir sıra kompleks tədbirlər görmək lazımdır. Onların arasında belə bir qanuna da ehtiyac ola bilər ki, hər şəraiti ola-ola evlənməyən gənclər təbii ki müəyyən vergilər verməklə ailəli, o uşaqları olan ailələrin inkişafına öz köməkliklərini etsinlər".

***Ayşən Vəli***



# Əli Kərimlinin trolları şəhərdə yeni təxribat planlaşdırır

İstənilən vaxt sosial şəbəkələrə nəzər yetirsən orada Əli Kərimli öndə olmaqla cəbhəçi trollarının və xaricdəki antimilli ünsürlərin Azərbaycan xalqını və dövlətini təhqir edən, müxtəlif vətənpərvər insanlara qarşı çirkin ittihamlarla çıxış edən statuslarına rast gəlmək və ya videolarını izləmək olar. Sanki bu gerizəkalı məxluqlar İlon Maskın, Pavel Durovun və Mark Zukerberqin muzdlu işçiləridir, gecə-gündüz onların sifarişi ilə sosial şəbəkələrdə küllənirlər. Yazdıqları rüsvayçı fikirlərə, paylaşdıqları +18 videolara görə nə utanır, nə də xəcalət çəkirlər. Cəmiyyətin haqlı iradı, tövsiyə və məsləhətləri də onları yanlış yoldan çəkindirmir. Əksinə, xalqın tələbinə qarşı dirəniş göstərməklə islah olunmaları mümkün olan məxluqlar olduqlarını nümayiş etdirirlər. Vəziyyət o həddə çatıb ki, artıq təxribatlarını, pozucu aktlarını da sosial şəbəkələr üzərindən yaymağa, təbliğ və təqdim etməyə cəhdlər göstərirlər. Belə fəaliyyət qanunazid hesab olunsa da, onlar Azərbaycanın azad, demokratik bir dövlət olmasından sui-istifadə etməklə öz pozucu əməllərini sosial şəbəkələr vasitəsi ilə yayırlar. Əli Kərimli məhkəməyə verilməsini və iddiaçı tərəfin onu xüsusi ittiham qaydasında cəzalandırılmasından qorxuya düşərək hay-küy qaldırıb, cəmiyyəti təhdid edən açıqlamalar verir, statuslar paylaşır. O günləri isə Nəsimi rayon məhkəməsi önündə trollarının və məram və məqsədlərini anlamayan insanların iştirakı ilə aksiya təşkil etdi. Aksiyanı sosial şəbəkələr üzərində canlı olaraq yayan Ə.Kərimli və trolları açıq şəkildə hüquq-mühafizə orqanlarına qarşı ittihamlar irəli sürüb, sabitliyə xələl gətirə biləcək addımlar atacaqlarını bəyan etdilər.



### Əli Kərimlinin trolluq etməsi təəccüb doğurmur

Ə.Kərimli "Siyasi partiyalar haqqında qanun"un və "Sərbəst toplaşmaq haqqında qanun"un tələblərini pozmaqla, qarşıdurma yaratmağa və pozuculuq aktları törətməyə hazır olan tör-töküntüləri oktyabrın 22-i saat 14:30-da məhkəmə qarşısına toplamağa çağırıb. Ehtimal olunur ki, Ə.Kərimli və trolları məhkəmə qarşısında icazəsiz mitinq təşkil edəcək və təlimat gələrsə hüquq-mühafizə orqanlarının üzərinə hücum çəkib qarşıdurma yarada bilərlər.

AXCP-dəki mənbəmizin verdiyi məlumata görə, Əli Kərimli məhkəmədə haqqında iddia qaldırmasından ciddi şəkildə qorxuya düşüb. O, cəzadan yayınmaq üçün hər cür trolluq edir və hay-küy qaldırır. Lakin dərk etmir ki, neçə -neçə gəncin həyatını populist çıxışları, qeyri-qanunu çağırışları ilə alt-üst edib. İcazəsiz aksiyalara məram və məqsədlərini anlamayan gəncləri cəlb etməklə onların asayişin keşiyində dayanan polis tərəfindən saxlanmalarında vasitəçi olub. Hazırda etdiyi pisliklərin, göstərdiyi yanlışlıqların, apardığı yaritmaz siyasətinin bədəlini ödəməkdədir. AXCP MNTK-ın sədri Aydın Əliyev partiya daxilində qatı diktatura rejimi qurduğuna və məhkəmə qərarlarını icra etmədiyinə və onun şərəf ləyaqətini təhqir etdiyinə görə Ə.Kərimlinin xüsusi ittiham qaydasında cəzalandırılmasını istəyir.

### Aydın Əliyev məhkəmə vasitəsi ilə pozulmuş siyasi hüquqlarının bərpasına nail olsa da...

Məlum olduğu ki, Ə.Kərimli partiya nizamnaməsinə və qanunvericiliyinin tələbinə uyğun olaraq fəaliyyətə üstünlük verməsini həzm edə bilmədiyindən A.Əliyevi AXCP MNTK-nın sədrliyindən və partiya üzvlüyündən azad edilməsinə nail olub. Lakin A.Əliyev də Ə.Kərimlinin özbaşınalığı ilə razılaşan şəxslərdən olmadığını məhkəməyə üz tutmaqla nümayiş etdirib. A.Əliyev məhkəmə vasitəsi ilə pozulmuş siyasi hüquqlarının bərpasına nail olsa da, Ə.Kərimli uzun müddətdir ki, məhkəmənin qərarını icra etməkdən imtina edib. Bu da bir daha Ə.Kərimlinin demokratik idarəetmə prinsiplərinə dözümsüz olduğunu göstərir. Baxmayaraq ki, o hər fürsət də azad, demokratik cəmiyyət quruculuğundan, siyasi pürralizmdən danışır. A.Əliyevə və digər cəbhəçilər qarşı hegemon münasibəti isə onu təsdiq edir ki, danışdıqları sadəcə boşboğazlıqdan başqa bir şey deyil. Bu azmış kimi Ə.Kərimli qanunlara qarşı çıxmaqla icazəsiz mitinqlər vasitəsi ilə şəhərdə iğtişaşlar törətməyə, qarşıdurmalar yaratmağa çalışır. Ancaq əminliklə demək olar ki, hər zaman asayişin qorunmasında, sabitliyin təmin olunmasında öz prinsipiallığı, qətiyyəti ilə seçilən Azərbaycan polisi bu dəfə də Ə.Kərimli və onun trol dəstəsinin şəhərdə qarışıqlıq yaratmalarına imkan verməyəcək. Pozuculuğa, qarşıdurmalara səy göstərən istənilən şəxs, o cümlədən təlimata uyğun olaraq fəaliyyət göstərən Ə.Kərimli və onun ətrafında fırlanan trollar qanunun sərt üzünü də görəcəklər.

***İLHAM ƏLİYEV***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb.*

***Təkcə 2024-cü ildə ölkəmizdə 11 910 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Xüsusilə Qarabağda bu istiqamətdə ciddi işlər aparılır. Laçın rayonuna və Zəngilanın Ağalı kəndinə köçürülən sakinlərdən daha bir qrup şəxsə bir neçə gün öncə Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində aktivlər verildi.***

# Özünü məşğul edənlər: 7 ildə 90 min nəfər





Verilmiş avadanlıqlar hesabına proqram iştirakçıları un məmulatları istehsalı, qadın gözəllik salonu, dərzi sexi, kişi bərbərxanası, dönərxana və broyler inkubatoru xidmətləri üzrə kiçik biznes sahələrini yaradıblar. Beləliklə, Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülən sakinlərdən özünüməşğulluq proqramı vasitəsilə kiçik təsərrüfatları yaradılan şəxslərin sayı artıq 131-ə çatıb. Ümumilikdə, Qarabağda 2026-cı ilədək 2500 şəxsin özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulub. Qeyd edək ki, özünüməşğulluq proqramı 2017-ci ilin yanvar ayından həyata keçirilir və bugünədək bu proqram vasitəsi ilə 90 mindən artıq vətəndaş öz işinin sahibi olub.

Özünüməşğulluq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununun 1.1.15 maddəsində qeyd olunduğu kimi, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir və aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır.

Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq kənd təsərrüfatı, istehsal və ya xidmət üzrə əmlaklar ilə təmin edilir. Bu Özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir. Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Beləki, proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində parallel nəticələrin əldə edilməsinə imkan yaradır.



Özünüməşğulluq proqramının üstün tərəfləri ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması, mikro və kiçik sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması, ictimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması, yoxsulluq səviyyəsinin azaldılması, iqtisadiyyatda inkluzivliyin gücləndirilməsidir.

Özünüməşğulluğun təşkili bir neçə mərhələdə həyata keçirilir. Özünüməşğulluğun təşkili ilə bağlı məsləhətlərin və məlumatların verilməsi, məşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilir, özünüməşğulluğun təşkili üçün biznes-planın hazırlanmasına köməklik göstərilməsi, o cümlədən təlimlərin keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi həyata keçirilir. Seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün natura şəklində material, avadanlıq və digər əmlaklar 1 il müddətinə müqavilə əsasında verilir, özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin 1 il müddətində dövri monitorinqi aparılır.

Proqrama qoşulmaq üçün Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarına və ya DOST Mərkəzlərinə müraciət etməklə işsiz və işaxtaran vətəndaşlar növbəyə yazıla bilərlər. Proqrama işsizlər, habelə, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununun 4.1.3-cü maddəsində nəzərdə tutulan mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslər qoşula bilər. Proqramın icrası zamanı ünvanlı dövlət sosial yardım alanlara, əlilliyi olan şəxslərə, şəhid ailəsinin üzvlərinə, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə əlavə güzəştlər edilir.

Bəzən olur ki, müxtəlif şəxslər özünüməşğulluq proqramından kənarlaşdırılır. Bu o hallarda baş verir ki, özünüməşğulluq istiqamətinin təşkili üçün əmlak veriləndək özünüməşğulluğa cəlb olunmuş şəxsin məşğul şəxs olduğu aşkar edilsin. Bu halda ona əmlakın verilməsinin və özünüməşğulluğuna kömək göstərilməsinin dayandırılması haqqında qərar qəbul edilir. Mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan işaxtaran şəxslər istisna olmaqla bütün məşğul şəxslər özünüməşğulluq proqramından yararlana bilməz. İşsizlikdən sığorta ödənişi alan şəxslər də sığorta ödənişi aldığı müddətdə özünüməşğulluğa cəlb edilə bilməzlər. Həmçinin, peşə təhsili alan şəxslər peşə təhsili aldığı müddətdə özünüməşğulluğa cəlb edilə bilməz.

Özünüməşğulluğa cəlb oluna bilməyən məşğul şəxslər dedikdə muzdla işləyənlər, yəni Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər, mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər, sahibkarlar, ailə kəndli təsərrüfatının üzvləri, haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər, ödənişli fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsil müəssisələrində əyani təhsil alanlar, Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları nəzərdə tutulur.

Özünüməşğulluq təlimləri fiziki və ya online şəkildə həyata keçirilir.Sonda qiymətləndirmə prosesi olur, qiymətləndirmə zamanı özünüməşğulluğun təşkili üçün uyğun hesab edilməyən şəxslər biznes təlimlərində yenidən iştirak etmək hüququna sahib olur. Özünüməşğulluğa cəlb olunmuş şəxslərə natura şəklində material,avadanlıq və digər əmlaklar 1 il müddətinə müqavilə əsasında verilir. Özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin müqavilə müddəti ərzində monitorinqi aparılır və müqavilə müddətinin sonuna həmin şəxsin fəaliyyəti təqdim edilmiş biznes-plana uyğun olduqda, özünüməşğulluğun təşkili üçün verilmiş əmlak həmin şəxsin mülkiyyətinə verilir. Özünüməşğulluğa cəlb olunmuş şəxs ona verilən əmlakdan 1 il ərzində üzrsüz səbəbdən istifadə etmədikdə həmin əmlakı və yaxud onun dəyərini Dövlət Məşğulluq Agentliyinə qaytarır.

Özünüməşğulluq proqramı çərçivəsində verilmiş material, avadanlıq və ya əmlak xarab olduqda, heyvanlar tələf olduqda dərhal Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Mərkəzinin Struktur bölməsinə və ya DOST Mərkəzlərinə məlumat verilməlidir. İstehsal və xidmət sahələri üzrə müraciət etmiş şəxsin müraciət etdiyi anda əmlakı istifadə etmək üçün yeri, habelə özünüməşğulluğun təşkili üçün şəraiti olmadığı halda həmin şəxs əmlakı təhvil aldıqdan sonra müvafiq şəraiti təmin edəcəyi barədə yazılı iltizamı imzalayır.

Qeyd edək ki, özünüməşğulluğa cəlb edilən qazilərin və .aid ailəsinin üzvlərinin sayı da durmadan artır. Təkcə bu il proqram çərçivəsində artıq 1291 şəhid ailəsi üzvü və müharibə veteranı özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin olunub.

***Lalə Mehralı***

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uşaqda telefon asılılığı varsa, valideyn nə etməlidir?



***"Valideyn-uşaq ünsiyyəti uşağın inkişafında çox vacibdir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. O bildirib ki, ünsiyyət uşaqların həm psixoloji inkişafına, həm bioloji inkişafına təsir edir: "Ümumiyyətlə, valideyn övladı ilə ünsiyyətdə olarkən onun haqqında daha çox məlumat bilir, onun problemlərini daha çox hiss edir, həll etməyə çalışır.***

Valideyn övladı haqqında daha çox məlumata malik olur. İndiki zamanda bu münasibətlər tam yerində deyil. Çünki hər iki valideyn işləyir, uşaq daha çox nənə-babanın, yaxud da, dayənin himayəsində qalır. Uşaqlar bütün günü dərslərdə, hazırlıqlarda olduqlarına görə valideynləri ilə az zaman keçirirlər. O zaman da artıq valideynlər öz problemlərini həll edir, uşaqlar da telefon, planşetlərində vaxt keçirirlər. Hətta sonradan valideynlər uşaqları cəlb etməyə çalışsalar belə, artıq alınmır. Çünki onların ehtiyacı olan vaxtda valideyn onlarla ünsiyyət qura bilmədiyi üçün uşaqlar ünsiyyəti

## PSİXOLOQ İZAH ETDİ

başqa yerdə axtarıb tapırlar. Başqa yerdə uşaqlar üçün çox rahat olur.

Telefon vaxt keçirmək üçün həm bəhanədir, həm də yox. Bəhanədir ona görə ki, əslində valideynlərin də bəzən problemləri orada həll olunur. Bəzən işlə əlaqədar, bəzən münasibətlərlə bağlı ola bilər, işləyən insandır, axşam evə gəlir, müəyyən problem, dostluq əlaqələrini möhkəmləndirməyə çalışır. Əlbəttə ki, telefon olmayanda da az zaman ayıran valideynlər olduğuna görə biz buna tam bəhanə də deyə bilmirik. Düşünürəm ki, analar öz zamanlarını elə bölməlidirlər ki, övladlarına ayırdıqları vaxtda telefonla məşğul olmasınlar".

"Telefonla valideyn-övlad arasında münasibətləri tənzimləmək olar. Məsələn, gün ərzində bir-biri ilə əlaqə qura bilərlər. Müəyyən oyunlar var ki, onlar həm valideyn, həm də uşaq tərəfindən oynanıla bilir, intellektual oyunlar var, onlardan istifadə edə bilərlər. Uzaq olanda görüntülü olaraq müzakirə apara bilərlər. Bu, ünsiyyət üçün də istifadə oluna bilər. Amma yan-yana olanda telefona ehtiyac yoxdur" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Bundesliqanın rəsmi səhifəsi Mahiri paylaşdı



***Almaniyanın əsas Bundesliqasının rəsmi səhifəsi "Nürnberq"də forma geyən Azərbaycan millisinin üzvü Mahir Emreli paylaşıb. SİA xəbər verir ki, paylaşımda "derbi günündə səfərdə 4:0 hesablı qələbə!" sözləri yazılıb.***

Xatırladaq ki, Mahir Emreli Almaniya II Bundesliqasında "Qroyter"lə matçda baxımlı qola imza atıb. O, görüşün 13-cü dəqiqədə 25 metrlik məsafədən qol vurmaqla hesabı açıb. Nəticədə "Nürnberq" səfərdə "Qroyter"i 4:0 hesabı ilə məğlub edib.

# Yol polisi sürücülərə müraciət edib




***Baş Dövlət Yol Polisi İdarəsi yağıntılı hava şəraiti ilə bağlı sürücülərə müraciət edib. SİA xəbər verir ki, müraciətdə deyilir: "Mövcud hava şəraitinin yol hərəkəti iştirakçılarına yaratdığı çətinliklərlə bağlı edilən xəbərdarlıqlara baxmayaraq, son iki gündə qeydə alınan yol qəzalarının təhlili verilən tövsiyələrə daha ciddi əməl olunmasının vacibliyindən xəbər verir.***

Hazırda ölkə ərazisində müşahidə olunan yağışlı hava ilə əlaqədar bir daha avtonəqliyyat vasitələrinin sürücülərinə müraciət edərək onlardan yağışlı, dumanlı havalarda sürüşmə ehtimalının dəfələrlə artmasını, görünüş məsafəsinin əhəmiyyətli dərəcədə məhdudlaşmasını nəzərə alaraq, sürət həddini minimuma endirməyi, kifayət qədər ara məsafəsi saxlamağı, avtomobillərinin mövsümə uyğun təchiz olunmasını təmin etməyi, nasaz nəqliyyat vasitələri ilə yola çıxmaqdan çəkinməyi, özləri və digər hərəkət iştirakçıları üçün təhlükəli vəziyyətlər yaratmamağı xahiş edir".


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700